# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 yanvar 2026-cı il, cümə
№ 013 (7080)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Davosda Azərbaycan İMZASI!!!



Bax səh. 2

## Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil!




Bax səh. 2

## Davosda Prezident İlham Əliyevin Prezident Donald Tramp ilə görüşü olub

Bax səh. 2

## Yeni sülh missiyası

Müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Qlobal güc mərkəzləri yenidən formalaşır, klassik təhlükəsizlik mexanizmləri isə yeni çağırışlar qarşısında bəzən təsirsiz qalır. Belə bir mürəkkəb geosiyasi mənzərədə regional aktorların qlobal proseslərə təsir imkanları artmaqda, etibarlı tərəfdaş anlayışı isə beynəlxalq siyasətin əsas meyarlarından birinə çevrilməkdədir. Məhz bu kontekstdə Azərbaycanın artan rolu xüsusi diqqət çəkir.

Son illər rəsmi Bakı təkcə regional sabitliyin təminatçısı kimi deyil, həm də qlobal təhlükəsizlik və sülh gündəliyinə töhfə verən məsuliyyətli aktor kimi çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi, multikultural dəyərlərin təşviqi və beynəlxalq dialoq platformalarının yaradılması Azərbaycanın yumşaq və sərt güc elementlərini balanslı şəkildə birləşdirdiyini göstərir. Bu siyasət ölkəmizi etibarlı vasitəçi və dialoq məkanı kimi ön plana çıxarıb.

Yeri gəlmişkən, yanvarın 16-da ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycan Respublikasını təşkilata Təsisçi Üzv Dövlət olmağa dəvət edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Azərbaycan Respublikası sözügedən dəvəti qəbul edərək, Sülh Şurasına Təsisçi Üzv Dövlət olmaq niyyətini ABŞ tərəfinin diqqətinə çatdırıb. Ölkəmizin Sülh Şurasına üzvlüyü ilə bağlı rəsmi təsdiq məktubu ABŞ tərəfinə ünvanlanacaq və tələb olunan prosedurlar çərçivəsində müvafiq tədbirlər həyata keçiriləcək. Azərbaycan hər zaman olduğu kimi beynəlxalq əməkdaşlıq, sülh və sabitliyə fəal töhfə verməyə hazırdır.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp bununla bağlı Prezident İlham Əliyevə məktub ünvanlayıb. Tramp məktubunda Prezident İlham Əliyevi Yaxın Şərqdə sülhü möhkəmləndirmək üçün, eyni zamanda, qlobal münaqişənin həll olunmasına yeni yanaşma üsuluna qədəm qoymaq yolunda son dərəcə mühüm əhəmiyyət daşıyan tarixi və möhtəşəm fəaliyyətə qoşulmağa...

Bax səh. 3



Bax səh. 4

## YAP Veteranlar Şurasının iclası keçirilib

## Üç əsas prioritet: bağlantılar, ticarət və investisiyalar, müdafiə və təhlükəsizlik...

Bax səh. 5

## ABŞ - Aİ “ticarət müharibəsi”...

Rüsum tətbiq edilməyəcək

Bax səh. 6

## Strateji İşçi Qrupunun ikinci iclası...

Cənubi Qafqaz regionunda formalaşan postmüharibə reallıqları Azərbaycanı yeni dövrdə beynəlxalq birliyin aparıcı aktorlarından birinə çevirib. Geostrateji ərazidə təhlükəsizlik arxitekturası yaratması, iqtisadi əməkdaşlıq perspektivlərini gücləndirməsi, ən əsası isə qütblərarası, hətta sivilizasiyalararası münasibətlərin inkişafına verdiyi töhfə Azərbaycanın aparıcı güc kimi əhəmiyyətini artırıb. Nəticə etibarı ilə rəsmi Bakının bütün platformalar üzrə etibarlı tərəfdaş statusu daha da möhkəmlənib.

Ölkəmiz dünyada meydana çıxan yeni çağırışlar fonunda beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verir. Xoş mərama əsaslanaraq irəli sürdüyümüz təşəbbüslər dünya ölkələri və müxtəlif beynəlxalq təşkilatlar arasında körpülərin yaradılmasına, etimad mühitinin möhkəmlənməsinə, əlaqələrin intensivləşməsinə, sülhün və beynəlxalq təhlükəsizliyin daha da dərinləşməsinə xidmət edir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Bu gün rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir.

Ötən il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər də dövlətimizin nüfuzunun göstəricisidir. Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub. Son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi qeyd edilməlidir. Bəlli olduğu kimi, rəsmi Vaşinqton...

Bax səh. 4



## MDB-də növbəti yarpaq tökümü

Bax səh. 7



## İranda nisbi sakitlik yaransa da...

Bax səh. 6

# Davosda Azərbaycan İMZASI!!!







## Prezident İlham Əliyev Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində iştirak edib




**Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

**Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar.**



# Azərbaycan-ABŞ strateji tərəfdaşlığının dünyada sülhün təşviqində oynadığı rol

## Davosda Prezident İlham Əliyevin Prezident Donald Tramp ilə görüşü olub

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulanıb.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxunub. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirib. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğulayıb.



Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd edib.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunulub, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edilib. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirilib.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.

## Prezident İlham Əliyev panel iclasda iştirak edib




Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 21-də Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp xüsusi müraciətlə çıxış edib. Sonra Donald Trampın iştirakı ilə panel iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

## Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil!

### Azərbaycan Prezidenti "Qarabağ" futbol klubunu təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında "Qarabağ" futbol klubunun qələbəsi ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Çempionlar Liqasının əsas mərhələsində "Ayntraxt" komandası üzərində parlaq qələbə qazanması münasibətilə "Qarabağ" futbol klubunu ürəkdən təbrik edirəm!

Hakimin ədalətsiz və qərəzli qərarlarına baxmayaraq, haqq-ədalət öz yerini tapdı. Birinci dəfə deyil ki, UEFA tərəfindən təyin edilən hakimlər ədalətsiz və qərəzli qərarları ilə "Qarabağ"ın qələbə yolunu kəsməyə çalışırlar. Ümid edirəm ki, UEFA bu hakimin kimin tərəfindən təyin olunmasına aydınlıq gətirəcək.

Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil. Yaşasın "Qarabağ!".

# Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir

## Prezident İlham Əliyev Davosda Aİ-nin Genişlənmə üzrə komissarı Marta Kosla görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Marta Kosun ötən il Azərbaycana, o cümlədən Qarabağa səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. Marta Kos işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Eyni zamanda, enerji, regional nəqliyyat bağlantıları, humanitar minatəmizləmə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu.

Marta Kos Avropa İttifaqının Azərbaycanın humanitar minatəmizləmə sahəsində fəaliyyətinə, həmçinin Naxçıvanın dəmir yolu xəttinin bərpası layihələrinə dəstək göstərməyə hazır olduğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulandı və bu istiqamətdə fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Davosda "Vitol" şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda həyata keçirilən neft strategiyası barədə məlumat verildi, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində roluna toxunuldu. Bu xüsusda bir neçə Avropa ölkəsinin, o cümlədən Avropa İttifaqına bir sıra üzv dövlətlərin Azərbaycan qazı ilə təchiz edilməsi vurğulandı.

Görüşdə ölkəmizlə bu şirkət arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, baş ofisi Rotterdam şəhərində yerləşən "Vitol" dünyanın aparıcı neft ticarəti şirkətlərindən biridir. 1966-cı ildə qurulan "Vitol" qrupu dünyanın üç əsas xam neft broker şirkəti sırasına daxildir.

# Yeni sülh missiyası

## Bakı qlobal təhlükəsizliyin təminində rol alır




Müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Qlobal güc mərkəzləri yenidən formalaşır, klassik təhlükəsizlik mexanizmləri isə yeni çağırışlar qarşısında bəzən təsirsiz qalır. Belə bir mürəkkəb geosiyasi mənzərədə regional aktorların qlobal proseslərə təsir imkanları artmaqda, etibarlı tərəfdaş anlayışı isə beynəlxalq siyasətin əsas meyarlarından birinə çevrilməkdədir. Məhz bu kontekstdə Azərbaycanın artan rolu xüsusi diqqət çəkir.

Son illər rəsmi Bakı təkcə regional sabitliyin təminatçısı kimi deyil, həm də qlobal təhlükəsizlik və sülh gündəliyinə töhfə verən məsuliyyətli aktor kimi çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi, multikultural dəyərlərin təşviqi və beynəlxalq dialoq platformalarının yaradılması Azərbaycanın yumşaq və sərt güc elementlərini balanslı şəkildə birləşdirdiyini göstərir. Bu siyasət ölkəmizi etibarlı vasitəçi və dialoq məkanı kimi ön plana çıxarıb.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

**To His Excellency Mr. Donald J. Trump,**
**President of the United States of America**

Dear Mr. President,

Thank you for your letter inviting the Republic of Azerbaijan to join the Board of Peace as a founding member state.

I accept this invitation as a sign of mutually respectful and beneficial partnership between the Republic of Azerbaijan and the United States of America, and as a recognition of Azerbaijan's role in promotion of peace and stability at the regional and global levels. The Republic of Azerbaijan joins the Board of Peace by sharing its noble mission of ending the conflict in Gaza and building a safer and more prosperous future for all affected by the long-lasting conflict.

I believe that the Board of Peace will be an effective international organization and successfully deliver on its mission.

Please, accept my sincere appreciation for your visionary leadership and peace-building efforts, and best wishes of success in your capacity as the Chairman of the Board of Peace.

Ilham ALIYEV
President of the Republic of Azerbaijan

Davos, 21 January 2026



THE WHITE HOUSE
WASHINGTON
January 16, 2026

His Excellency
Ilham Aliyev
President of the Republic of Azerbaijan
Baku

Dear Mr. President,

It is my Great Honor to invite you, as President of the Republic of Azerbaijan, to join me in a critically Historic and Magnificent effort to solidify Peace in the Middle East and, at the same time, to embark on a bold new approach to resolving Global Conflict!

On September 29th, 2025, I announced the *Comprehensive Plan to End the Gaza Conflict*, an extraordinary 20-point roadmap quickly embraced by all World Leaders, including major Heads of State across the Arab World, Israel, and Europe. In furtherance of this Plan, on November 17th, the United Nations Security Council overwhelmingly adopted Resolution 2803, welcoming and endorsing this vision.

Now it is time to turn all of these Dreams into reality. At the heart of the Plan is The Board of Peace, the most impressive and consequential Board ever assembled, which will be established as a new International Organization and Transitional Governing Administration.

Our effort will bring together a distinguished group of nations ready to shoulder the noble responsibility of building LASTING PEACE, an Honor reserved for those prepared to lead by example, and brilliantly invest in a secure and prosperous future for generations to come. We will convene our wonderful and committed partners, most of whom are Highly Respected World Leaders, in the near future.

As Chairman of the Board, I formally invite the Republic of Azerbaijan to join as a Founding Member State, and become a party to the Charter of The Board of Peace, as represented by you. This Board will be one of a kind, there has never been anything like it! Each Member State may designate an authorized representative to attend and participate in meetings on its behalf. Enclosed are the Comprehensive Plan and the Board's Charter, which is now open for your signature and ratification.

I look forward to working with you, long into the future, toward the goal of establishing lasting WORLD PEACE, PROSPERITY, AND GREATNESS FOR ALL!

With best wishes, I am,

Sincerely,

DONALD J. TRUMP
PRESIDENT OF THE UNITED STATES OF AMERICA

**Dayanıqlı sülhün, rifahın naminə birgə əməkdaşlıq**

Yeri gəlmişkən, yanvarın 16-da ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycan Respublikasını təşkilata Təsisçi Üzv Dövlət olmağa dəvət edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Azərbaycan Respublikası sözügedən dəvəti qəbul edərək, Sülh Şurasına Təsisçi Üzv Dövlət olmaq niyyətini ABŞ tərəfinin diqqətinə çatdırıb. Ölkəmizin Sülh Şurası üzvlüyü ilə bağlı rəsmi təsdiq məktubu ABŞ tərəfinə ünvanlanacaq və tələb olunan prosedurlar çərçivəsində müvafiq tədbirlər həyata keçiriləcək. Azərbaycan hər zaman olduğu kimi beynəlxalq əməkdaşlıq, sülh və sabitliyə fəal töhfə verməyə hazırdır.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp bununla bağlı Prezident İlham Əliyevə məktub ünvanlayıb. Tramp məktubunda Prezident İlham Əliyevi Yaxın Şərqdə sülhü möhkəmləndirmək üçün, eyni zamanda, qlobal münaqişənin həll olunmasına yeni yanaşma üsuluna qədəm qoymaq yolunda son dərəcə mühüm əhəmiyyət daşıyan tarixi və möhtəşəm fəaliyyətə qoşulmağa dəvət etməkdən böyük şərəf duyduğunu bildirib: "Şuranın Sədri kimi, Azərbaycan Respublikasını təsisçi üzv dövlət qismində qoşulmağa və Sizin təmsilçiliyinizlə Sülh Şurasının Nizamnaməsinə tərəf olmağa rəsmi şəkildə dəvət edirəm. Bu Şura bənzərsiz bir qurum olacaq - indiyədək buna oxşar heç bir qurum mövcud olmayıb! Hər bir üzv dövlət onun adından iclaslarda iştirak etmək və təmsil olunmaq üçün səlahiyyətli nümayəndə təyin edə bilər. Əlavədə əhatəli plan və hazırda imzalanma və ratifikasiya üçün açıq olan Şuranın Nizamnaməsi təqdim olunur. Gələcək illərdə dünyada dayanıqlı sülhün, rifahın və hamı üçün qüdrətin bərqərar olunması məqsədi naminə Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm".

Prezident İlham Əliyev də bununla bağlı Amerika Prezidentinə məktub ünvanlayıb və Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycan Respublikasını dəvət etdiyi üçün minnətdarlıq edib. Vurğulayıb ki, bu dəvəti Azərbaycan ilə ABŞ arasında qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığın, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edir: "Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq. İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək. Sizin müdrik liderliyinizə və sülh quruculuğu səylərinizə səmimi təqdirimi qəbul edin. Sizə Sülh Şurasının Sədri vəzifənizdə uğurlar arzu edirəm". Qeyd edək ki, artıq Sülh Şurasının yaradılması ilə bağlı sənəd imzalanıb.

Beləliklə, Bakının Sülh Şurasına üzv olması Azərbaycanın beynəlxalq nüfuzunun və artan strateji çəkisinin açıq göstəricisidir. Bu addım Azərbaycanın artıq yalnız regional təşəbbüslərlə kifayətlənmədiyini, qlobal sülhün tənzimlənməsində söz sahibi olan ölkələr sırasında yer aldığını təsdiqləyir. Sülh Şurasında təmsilçilik Bakıya beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşmasında daha fəal iştirak imkanı yaradır.

Azərbaycanın bu platformada yer alması eyni zamanda ədalətli mövqeyə, beynəlxalq hüquqa və suverenliyə əsaslanan siyasətinin qəbul edildiyini göstərir. Postmünaqişə dövründə sülh təşəbbüsləri ilə çıxış edən, qarşıdurma yox, əməkdaşlıq xəttini seçən Azərbaycan üçün bu üzvlük yeni siyasi mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Bu mərhələ ölkəmizin qlobal sülh və təhlükəsizlik proseslərində aparıcı aktorlardan birinə çevrilməsini daha da sürətləndirir.

**Uzlaşdırıcı mövqe...**

Azərbaycan bu gün üzvü olduğu siyasi təşkilatlarda, iqtisadi birliklərdə fəallığı ilə daim seçilir. Son 20 illik yolda BMT TŞ-ya sədrlik, Qoşulmama Hərəkatına rəhbərlik kimi çətin və məsuliyyətli vəzifələrin öhdəsindən gələn rəsmi Bakı özünün ədalətə əsaslanan, beynəlxalq hüquqa söykənən möqeyi ilə şöhrət qazanıb. Qlobal pandemiya dövründə davranışları, kolonializmdən əziyyət çəkən ölkələrə yardımları, qlobal iqlim dəyişikliyindən əziyyət çəkən dövlətlərin hüquqlarının müdafiəsi kimi mühüm fəaliyyət spektrləri Azərbaycanın beynəlxalq aləmdəki yerini müəyyənləşdirib. Bu, Bakının əhəmiyyətini, əməkdaşlıq üçün tam etimad edilən dövlət kimi qəbul olunduğunu göstərir. Müasir çağırışlar çoxtərəfliliyi təbliğ edir - xüsusilə, ticari-iqtisadi münasibətlərin diversifikasiya edilməsi ölkələrarası əlaqələrə rəngarənglik qatır. Azərbaycanın bütün qlobal mühit üçün alternativ enerji və nəqliyyat marşrutu kimi strateji əhəmiyyətinin artması faktaloji haldır - xüsusilə, Cənub Qaz Dəhlizi, yaşıl enerji layihələri və Zəngəzur dəhlizi kimi təşəbbüslər bu kimi məqamlarda ön plana çəkilir. Paralel olaraq təhlükəsizlik amili yeni dövrün əsas komponentlərindən biri kimi çıxış edir. Azərbaycanın siyasi praqmatizmə əsaslanan mövqeyi və regional sülh təşəbbüsləri iştirakçı ölkələr tərəfindən bütün mənalarda təqdir edilir. Bu isə Azərbaycanın regionda sülh və inkişafın əsas mənbəyi olmasının daha da qətiləşdirir.

**Şərq ilə Qərbin kəsişməsində sülh platformasının memarı...**

Təbii ki, bu cür uğura imza atmaq heç də asan olmayıb - müstəqillik qazandığı ilk illərdə bir sıra geosiyasi çətinliklərlə üzləşən Azərbaycan son iki onillikdə ardıcıl və müdrik siyasət nəticəsində beynəlxalq aləmdə etibarlı tərəfdaş statusunu möhkəmləndirib. Xüsusilə son illərdə Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu Azərbaycanın nüfuzunu həm regionda, həm də dünya miqyasında gücləndirib. Qeyd edildiyi kimi, bu gün Bakı həm qlobal Şimalda, həm də qlobal Cənubda tərəfdaş kimi qəbul olunur, beynəlxalq təşkilatlarda fəallığı ilə seçilir və beynəlxalq statuslu problemlərin həllində konstruktiv mövqeyini nümayiş etdirir.

Azərbaycanın beynəlxalq nüfuzunun formalaşmasında bir neçə əsas faktor mühüm rol oynayıb. Əvvəla, ölkəmizin yerləşdiyi geostrateji məkan - Xəzər hövzəsi, Cənubi Qafqaz və Mərkəzi Asiya ilə Şərqi Avropanı birləşdirən yolayrıcında olması Bakını regionun əsas siyasi və iqtisadi aktoruna çevirib. Bu mövqedən səmərəli istifadə edən Azərbaycan transmilli enerji və nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış edərək həm regional sabitliyi, həm də beynəlxalq əməkdaşlığı möhkəmləndirib.



Eyni zamanda, Azərbaycan beynəlxalq arenada qarşılıqlı maraqlara söykənən siyasət yürüdür. Bu siyasət həm Qərb, həm də Şərq dövlətləri ilə etibarlı tərəfdaşlıq münasibətlərinin inkişafına şərait yaradır.

Ölkəmiz bir tərəfdən Avropa İttifaqı ilə enerji təhlükəsizliyi sahəsində mühüm əməkdaşlıq edir, digər tərəfdən isə İslam dünyası, Asiya ölkələri və postsovet məkanında sıx əlaqələrini qoruyur. Bu, Azərbaycanın "çoxşaxəli diplomatiya" modelini formalaşdıraraq onu beynəlxalq münasibətlər sistemində sabitlik və etibarlılıq simvoluna çevirib.

**Yeni dövrdə yeni stabilləşdirici rol...**

XXI əsrin yeni mərhələsində dünya siyasətində qütblərarası rəqabətin kəskinləşməsi və enerji-logistika marşrutları uğrunda mübarizənin artması fonunda Azərbaycanın sabitləşdirici potensialı daha aydın görünməyə başlayıb. Bakı artıq yalnız region üçün deyil, həm də geniş Avrasiya məkanında siyasi dialoqun qorunması, təhlükəsizlik risklərinin idarə olunması və əməkdaşlıq mexanizmlərinin qurulması baxımından mühüm mərkəz" funksiyasını icra edir.

Azərbaycanın bu statusu təsadüfi deyil. Ölkənin xarici siyasət xətti hər zaman milli maraqlar prinsipinə, mehriban qonşuluq fəlsəfəsinə və qarşılıqlı fayda modelinə əsaslanıb. Bu siyasət regionu uzun müddət təhdid altında saxlayan güc qarşıdurmalarını neytrallaşdırmağa imkan verir. Təsadüfi deyil ki, postmünaqişə reallığı formalaşandan dərhal sonra Azərbaycan Ermənistanı sülh gündəliyinə dəvət edən tərəf oldu - Bakı bölgəni ifrat hərbi-siyasi risklərdən azad edərək onu yeni iqtisadi və diplomatik əməkdaşlıq meydanına çevirdi.

**P.İSMAYILOV**

# Prezident İlham Əliyevin Davosda səsləndirdiyi fikirlər dünya mətbuatında






















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında və "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə söylədiyi fikirlər beynəlxalq mətbuat tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Avropanın müxtəlif ölkələrinin, Rusiyanın və ərəbdilli ölkələrin media orqanları Azərbaycan Prezidentinin "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasındakı çıxışına istinadən məqalələr hazırlayıblar. Məqalələrdə ilk növbədə Ermənistan və Azərbaycan arasında artıq arxada qalmış müharibədən sonra regionda yaranmış yeni reallıqlar, iki ölkə arasında gələcəyə yönəlmiş baxışlar diqqət mərkəzində dayanıb.

Türkiyənin "Anadolu", "İhlas" xəbər agentlikləri, Rusiyanın "Kommersant", "Komsomolskaya pravda", "Vedomosti", "Vesti", "Qazeta" qəzet və portalları, "TASS" xəbər agentliyi, ərəbdilli "lebanon24", "Al bayader" portalları" Prezident İlham Əliyevin çıxışına istinadla Azərbaycanın və Ermənistanın müharibə fəslini bağladığını qeyd ediblər. Dövlətimizin başçısı qeyd edib ki, otuz il əziyyət çəkmiş ölkənin lideri olaraq lazımi vaxtda dayanmaq olduqca məsuliyyətli və vacib qərar idi. Sonsuz müharibələr daha çox əziyyət və qurbanlar ilə nəticələnəcəkdi. "Beləliklə, müharibə heç vaxt bitməyəcəkdi. Kimsə bunu dayandırmalı idi və biz buna son qoymaq qərarına gəldik. Bəli, həmin fəsli bağlamaq və sülh üçün imkanları görməklə bağlı qərar Azərbaycan və Ermənistan liderlərinin birgə qərarı idi", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Qeyd olunur ki, Azərbaycan Prezidenti çıxışında beynəlxalq təşkilatların fəaliyyətindən də danışıb: "Beynəlxalq vasitəçiliklə bağlı bütün ümidlərimiz tam alt-üst oldu. Ali beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ərazilərimizdən erməni qoşunlarının çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Onlar kağız üzərində qaldı. ATƏT və digər beynəlxalq təsisatlar çoxsaylı qətnamələr qəbul etdilər. Onların heç biri bizim vəziyyəti öz əlimizə alanadək həyata keçirilmədi. Biz özümüz bunu etdik. Biz ədaləti, beynəlxalq hüququ, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdik, sonra isə sülhə nail olduq".

Dövlətimizin başçısı qeyd edib ki, bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Azərbaycandan Ermənistana neft göndərilib.

Məqalələrdə xüsusilə vurğulanıb ki, Azərbaycan və Ermənistan arasında bu addım regionda sabitliyin və əməkdaşlığın gücləndirilməsi üçün vacib dönüş nöqtəsidir və bunun bu mötəbər forum çərçivəsində Avrasiyaya həsr olunmuş toplantıda ifadə olunması mühüm əhəmiyyət kəsb edir.

"gulfpress.net", "inkl.com", "indexbox.io", "alsaudiapress.com" portalları isə Azərbaycan Prezidentinin Davosda beynəlxalq hüquq, Avropanın enerji təhlükəsizliyi və enerji təchizatının geosiyasi aspektləri barədə fikirlərinə yer ayırıblar. Qeyd edilib ki, Avropanın enerji təchizat mənbələrini şaxələndirməyə çalışdığı bir dövrdə Azərbaycan Avropa enerji bazarlarında sürətlə mühüm oyunçuya çevrilib. Prezident Əliyevin sözlərinə görə, hazırda Azərbaycan 16 dövlətə, o cümlədən Avropa İttifaqının 10 üzvünə təbii qaz ixrac edir. Bu geniş şəbəkə Azərbaycanı boru kəmərləri vasitəsilə qaz təchiz edən aparıcı qlobal ölkələrdən birinə çevirir ki, bu da təhlükəsiz və etibarlı enerji infrastrukturunun ön plana çıxdığı bir bazarda mühüm fərqləndirici cəhətdir.

Bir sıra mətbu orqanlar isə Azərbaycan Prezidentinin "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə söylədiklərinə, xüsusilə Azərbaycan neftinin gələcəyinə dair fikirlərinə diqqət ayırıblar. "mk.ru", "vesti.ru", "life.ru", "Komsomolskaya pravda", "Vzqlyad" kimi portal və qəzetlərdə Prezident İlham Əliyevin Azərbaycanda ikinci neft bumunun baş verə biləcəyinə dair fikri manşetə çıxarılıb. Qeyd edilib ki, qaz hasilatının artması fonunda hazırda ölkə "qara qızıl"ın hasilatını azaldır. Lakin neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlar var.

Bununla yanaşı, Prezident İlham Əliyev əsas prioritetin iqtisadiyyatın şaxələndirilməsi olduğunu xüsusi vurğulayıb. Azərbaycan Prezidenti yaşıl enerjinin artan roluna diqqət çəkərək deyib: "2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə etməyi gözləyirik".

Qazaxıstan mediası da Azərbaycan Prezidenti İlham Əliyevin Davosda Ümumdünya İqtisadi Forumu çərçivəsində çıxışlarını işıqlandırıb. "Kazinform" agentliyi Prezident İlham Əliyev Bakı və İrəvanın çoxillik münaqişə səhifəsini bağlamaq və dayanıqlı sülhə keçmək üzrə tarixi qərar qəbul etdikləri barədə sözlərini sitat gətirib.

Prezident İlham Əliyevin Davosa səfəri, keçirdiyi görüşlər, "Euronews" televiziyasına müsahibəsi Gürcüstan mətbuatında yaxından izlənilib. Gürcüstanın 1tv.ge televiziyasında, eləcə də bir sıra informasiya portallarında mövzu ilə bağlı silsilə xəbərlər yayımlanıb.

# Strateji İşçi Qrupunun ikinci iclası...

## Hədəf tərəfdaşlığın inkişaf etdirilməsidir

*Nardar BAYRAMLI*




Cənubi Qafqaz regionunda formalaşan postmüharibə reallıqları Azərbaycanı yeni dövrdə beynəlxalq birliyin aparıcı aktorlarından birinə çevirib. Geostrateji ərazidə təhlükəsizlik arxitekturası yaratması, iqtisadi əməkdaşlıq perspektivlərini gücləndirməsi, ən əsası isə qütblərarası, hətta sivilizasiyalararası münasibətlərin inkişafına verdiyi töhfə Azərbaycanın aparıcı güc kimi əhəmiyyətini artırıb. Nəticə etibarı ilə rəsmi Bakının bütün platformalar üzrə etibarlı tərəfdaş statusu daha da möhkəmlənib.

**Münasibətlər inkişaf edir**

Ölkəmiz dünyada meydana çıxan yeni çağırışlar fonunda beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verir. Xoş məramə əsaslanaraq irəli sürdüyümüz təşəbbüslər dünya ölkələri və müxtəlif beynəlxalq təşkilatlar arasında körpülərin yaradılmasına, etimad mühitinin möhkəmlənməsinə, əlaqələrin intensivləşməsinə, sülhün və beynəlxalq təhlükəsizliyin daha da dərinləşməsinə xidmət edir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Bu gün rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilmədir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir.

Ötən il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər də dövlətimizin nüfuzunun göstəricisidir. Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub. Son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi qeyd edilməlidir. Bəlli olduğu kimi, rəsmi Vaşinqton dünyanın iqtisadi-siyasi nəbzini formalaşdıran mühüm güc mərkəzlərindən biri sayılır. Nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan bu dövlətin son proseslərdə Cənubi Qafqaza, xüsusilə Azərbaycana diqqət yetirməsi bir sıra mətləblərdən xəbər verir.

Məsələ ondadır ki, ABŞ Prezidenti Donald Tramp Cənubi Qafqazda məhz Azərbaycanı özünün strateji tərəfdaşı seçərək keçmiş administrasiyanın yanlış siyasətini düzəltməyə çalışır. Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü təşəbbüslər ABŞ üçün olduqca cəlbedicidir. Bu təşəbbüslərin əsasında əməkdaşlıq, iqtisadi inkişaf, qitələrin ticarət əlaqələrini asanlaşdırmaq və ümumilikdə dünya iqtisadiyyatının inkişafına təkan verən pozitiv layihələr dayanır. ABŞ Azərbaycanı təsadüfən özünün strateji tərəfdaşı seçməyib. Dünya siyasətində aparıcı rol oynayan Amerika geosiyasi üstünlüyü müharibə və münaqişələrlə deyil, "yumşaq güclə" əldə etməyə çalışır. Onun sərmayəsi və siyasi dəstəyi hər bir qlobal xarakterli məsələdə həlledici rola malikdir.

**İlk iclasda nələr müzakirə olunmuşdu?**

Münasibətlərin yeni mərhələyə qədəm qoymasını şərtləndirən bir sıra faktlara da diqqət yetirək. Nəzərə alaq ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ liderləri tərəfindən Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalanıb. Sənədə əsasən tərəflər Strateji İşçi Qrupunda 3 sahəyə diqqət yönəltmək niyyətindədir. Birincisi, enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılardır. İkincisi, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr, üçüncüsü isə müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla təhlükəsizlik sahəsində əməkdaşlıqdan ibarətdir.

Xatırladaq ki, Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi Qrupunun ötən ay onlayn formatda tam tərkibdə ilk iclası keçirilmişdi. İclas zamanı Vaşinqton Sülh Sammiti çərçivəsində iki dövlət arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumu çərçivəsində prioritet elan edilmiş enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Avqustun 8-dən sonra qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib. Bu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq istiqamətlərini müəyyən edəcək Strateji Tərəfdaşlıq Xartiyası mətni üzrə fikir mübadiləsi aparılıb və sənədin qısa müddət ərzində razılaşdırılmasının əhəmiyyəti vurğulanıb. Eləcə də Strateji İşçi Qrupunun növbəti iclasının tarixləri və gündəliyi barədə razılıq əldə edilmişdi.

**Müzakirələr davam etdirilib**

Yeri gəlmişkən, yanvarın 21-də Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi Qrupunun xarici işlər nazirinin müavini Elnur Məmmədov və dövlət katibinin köməkçisinin müavini Sonata Koulterin rəhbərliyi ilə onlayn formatda ikinci iclası keçirilib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, iclas zamanı ötən avqustda Vaşinqton Sülh Sammiti çərçivəsində Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumuna uyğun olaraq, iki ölkə arasında enerji, ticarət, tranzit də daxil olmaqla regional bağlantılar, iqtisadi sərmayə, müdafiə və təhlükəsizlik, terrorçuluqla mübarizə, eləcə də süni intellekt, rəqəmsal infrastruktur kimi sahələrdə strateji tərəfdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb. Strateji Tərəfdaşlıq Xartiyasının yekunlaşdırılması məqsədilə sənədin mətni üzərində müzakirələr davam etdirilib.

Bütün bunlar göstərir ki, ABŞ-ı regiona cəlb edən əsas amillər Azərbaycan Prezidentinin həyata keçirdiyi sülh, sabitlik, dostluq, iqtisadi inkişaf və sosial rifah siyasətidir. Prezident İlham Əliyevin Zəngəzur dəhlizini reallığa çevirmək istəyinin də arxasında qlobal əməkdaşlıq dayanır. Bu əməkdaşlıq dəhliz boyu yerləşən dövlətlərin iqtisadi inkişafına böyük töhfələr verəcək. Ona görə də, TRIPP layihəsi də regionun gələcəyi üçün çox faydalıdır və strateji önəm daşıyır. Bütün bunların fonunda ABŞ-ın Azərbaycana münasibəti hər iki tərəfin maraqlarına uyğundur.

Bundan əlavə, Donald Trampın Azərbaycanı Sülh Şurasının təsisçi üzvlüyünə dəvət etməsi də ölkəmizin nəinki Cənubi Qafqaz, bütün dünyada böyük nüfuza malik olmasını təsdiqləyir. Bu amillər Azərbaycan-ABŞ əlaqələrinin yüksələn xətlə inkişafının göstəriciləridir.

# YAP Veteranlar Şurasının iclası keçirilib







Yanvarın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib. YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə gündəlikdə duran məsələlər haqqında məlumat verərək Şuranın 2025-ci ildə də öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, müvafiq Tədbirlər Planına uyğun şəkildə davam etdirdiyini vurğulayıb.

Görülən işlərdən bəhs edən Arif Rəhimzadə 2026-cı ilin Tədbirlər Planında nəzərdə tutulan məsələlərə nəzər yetirərək ideoloji işin, o cümlədən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsinin diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, Şuranın üzvləri Tahir Rzayev, Elbay Qasımzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca, Nazim İsmayılov, Fidumə Hüseynova, Arif Qaraşov və Zahid Xəlilov çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib. 2026-cı ilin Tədbirlər Planı ilə bağlı müxtəlif təkliflər səsləndirilib və yekunda müvafiq qərar qəbul olunub.



# Üç əsas prioritet: bağlantılar, ticarət və investisiyalar, müdafiə və təhlükəsizlik...

## Emi Karlon: TRIPP-i Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı 30 ildən sonra ilk dəfə real şəkildə birləşdirən tam multimodal tranzit məkanı kimi təsəvvür edirik

### ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili xanım Emi Karlonun AZƏRTAC-a müsahibəsi

**- Xanım Karlon, ABŞ və Azərbaycan arasında hazırkı siyasi dialoqu necə qiymətləndirirsiniz? Təsadüfi deyil ki, 2025-ci il sentyabrın 25-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı avqustun 8-də keçirilmiş Vaşinqton Sammitinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarə olduğunu söylədi. Sizin fikrinizcə, Vaşinqtonda Prezident İlham Əliyevin və Prezident Donald Trampın görüşündən, Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanmasından sonra iki dövlət arasında əməkdaşlıqda hansı əsas çağırışlar və imkanlar mövcuddur?**

- Məlumat üçün xatırladım ki, mən Azərbaycana 2025-ci ilin iyun ayında gəlmişəm. Ötən yeddi ayda ABŞ-Azərbaycan münasibətlərinin sürətli inkişafını müşahidə etmək məndə məmnunluq doğurur. Əlbəttə, bu dövrün ən yaddaqalan məqamı 8 avqust Sammiti idi. Həmin Sammitdə Prezident Tramp Prezident İlham Əliyevi və Baş nazir Paşinyanı Vaşinqtona dəvət etmişdi və orada bir sıra tarixi sənədlər imzalandı. Birincisi və ən əsası isə, əlbəttə ki, Azərbaycan və Ermənistan arasında sülhə dair saziş layihəsinin paraflanması idi.

İkincisi, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) barədə oldu. Bu məsələ imzalanmış Birgə Bəyannamənin vacib bir hissəsidir.

Üçüncüsü, bizim üçün çox mühüm olan, gələcəkdə strateji əməkdaşlığın qurulması məqsədilə ikitərəfli tərəfdaşlıq haqqında sənəd idi. ABŞ və Azərbaycan arasında gələcək əməkdaşlıq üçün çərçivəni müəyyən edən Anlaşma Memorandumu imzalandı.

Beləliklə, ötən aylar ərzində artıq bu sənədlərin faydalarını görməyə başlamışıq. Ötən il dekabrın 19-da hökumətlərimizin nümayəndələri Strateji Tərəfdaşlıq Xartiyası üzrə Strateji İşçi Qrupunun ilk iclasını keçirərək gələcək əməkdaşlığımızın müəyyənləşdirilməsi məsələlərini müzakirə etdilər.

Avqustun 8-dən sonra formalaşan yeni münasibətlər ABŞ şirkətləri üçün də imkanlar yaradıb. Mən bu imkanlar barədə bir sıra ABŞ şirkətləri ilə danışmışam və bu, Azərbaycanla münasibətlərimizin gələcək mərhələsində diqqət mərkəzində olacaq. Onu da qeyd etmək istəyirəm ki, ABŞ şirkətləri innovasiya və texnologiya sahələrində dünyada liderdirlər və biz bu imkanları ölkələrimizin qarşılıqlı rifahı naminə Azərbaycana gətirmək istəyirik.

**- Doğrudan da Vaşinqton Sammiti bütün dünyanın diqqətini çəkən müsbət bir hadisə oldu. Sizin də bəhs etdiyiniz kimi, həmin gün Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair Saziş layihəsini parafladılar, həm də Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar, Prezident Donald Tramp da buna şahid qismində imza atdı. Bütün bunların əhəmiyyəti barədə çoxlu sayda bəyanatlar, açıqlamalar verilib. Bununla bağlı ABŞ-ın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkilinin fikirlərini də eşitmək istərdik.**

- İlk növbədə, deyərdim ki, son otuz ildən artıq müddətdə Cənubi Qafqazda sülh üçün ən yaxşı fürsət avqustun 8-də keçirilən Sammit və Prezident İlham Əliyev ilə Baş nazir Nikol Paşinyanın Prezident Donald Trampın iştirakı ilə göstərilən təşəbbüsdür.

Bu, tarixi bir nailiyyətdir və Birləşmiş Ştatlar bunun bir parçası olmaqdan böyük qürur duyur. Eyni zamanda, avqust ayında Prezident Donald Tramp və Prezident İlham Əliyev tərəfindən imzalanmış strateji tərəfdaşlığımıza dair Anlaşma Memorandumu da münasibətlərimizi irəli aparmaq üçün, - xüsusilə iqtisadi sahədə, - çox böyük bir fürsətdir.

Avqustun 8-dən bəri biz süni intellekt, rəqəmsal infrastruktur, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə əməkdaşlıq üçün yeni imkanları fəal şəkildə müəyyənləşdirir və inkişaf etdiririk. Düşünürəm ki, bu yeni imkanları görmək hər iki ölkə üçün həqiqətən sevindiricidir. İrəliyə doğru hərəkətimizin və əməkdaşlığımızın sübutu olaraq, hər iki tərəfdən çoxsaylı səfərlərin şahidi olmuşuq.

Belə ki, Azərbaycan tərəfindən, bildiyiniz kimi, xarici işlər naziri, təhsil, iqtisadiyyat, rəqəmsal inkişaf və nəqliyyat, enerji sahələrinə cavabdeh nazirlər, həmçinin müdafiə və təhlükəsizlik üzrə nümayəndə heyəti ölkəmizə səfər edib. ABŞ tərəfindən isə açığı, ziyarətçilərin siyahısı çox genişdir. Avqust ayından bəri biznes nümayəndə heyətimiz səfər edib. Onlar Orta Dəhlizi müzakirə etmək üçün Qazaxıstanda, Azərbaycanda və Gürcüstanda olublar. ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunun baş rəsmisi Brendan Hanrahan səfər edib. Sülh missiyaları üzrə xüsusi elçi Aria Laytstoun da Azərbaycanda səfərdə olub.

Mərkəzi Komandanlığın komandanı, admiral Bred Kuperin və digər şəxslərin də səfərlərini xatırlatmaq istərdim. ABŞ Dövlət Departamentindən Azərbaycana ən yüksək səviyyəli ziyarətçilərdən biri ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Huker idi. O, Federal Rabitə Komissiyasının üzvü ilə birlikdə gəlmişdi. Onlar Azərbaycanın Bakıda çox uğurla ev sahibliyi etdiyi Beynəlxalq Telekommunikasiya İttifaqının Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında iştirak edən ABŞ-ın böyük nümayəndə heyətinə rəhbərlik edirdilər. Bunu da qeyd edim ki, biz, həmçinin hərbi və təhlükəsizlik sahəsində onilliklərdir davam edən tərəfdaşlığı yenidən başlatmaq üçün Oklahoma Milli Qvardiyasının rəhbərlərini də qarşıladıq. Gördüyünüz kimi, ABŞ tərəfindən Azərbaycana çox ciddi maraq var.

Biz artıq 2026-cı ildə çox yaxşı bir başlanğıc etmişik. Prezident İlham Əliyev yanvarın 4-də Konqresin nümayəndə heyətini çox səmimi şəkildə qəbul edib. Nümayəndə heyətinə ABŞ-ın Oklahoma ştatından senator Markveyn Mallin rəhbərlik edirdi. Bu, ikipartiyalı nümayəndə heyəti idi və onlar ikitərəfli münasibətlərimizi genişləndirməkdə çox maraqlı olduqlarını bildiriblər.

Qeyd etmək istəyirəm ki, azərbaycanlı tərəfdaşlarımız ABŞ nümayəndələrini qarşılamaqda son dərəcə səmimi və qonaqpərvər olublar.

Mən şəxsən ABŞ-dan gələn ziyarətçilərlə danışmışam. Onların bir çoxu səfərlərindən təsirləndiklərini bildirərək, buraya yenidən qayıtmaq niyyətində olduqlarını söyləyiblər. Düşünürəm ki, 2026-cı il ABŞ-dan gələn ziyarətçilərin ili olacaq və qarşıdakı aylarda daha çox səfər gözləyirik. Bu, ABŞ-Azərbaycan münasibətləri üçün çox yaxşı haldır.

**- Prezident İlham Əliyevin BMT tribunasından müasir dünya üçün verdiyi çox mühüm mesajları ABŞ-ın Azərbaycandakı diplomatik korpusunun rəhbəri olaraq necə dəyərləndirirsiniz?**

- Biz Prezident İlham Əliyevin və Baş nazir Paşinyanın avqustun 8-də keçirilən sammit barədə bəhs etməsindən məmnunuq. Onlar ötən il Birləşmiş Ştatlarda imzalanmış tarixi sənədlərdən bəhs etdilər. Düşünürəm ki, bu, həmin xalqların malik olduğu nikbinliyi, regionun bütün ölkələrinin gələcəyi ilə bağlı bölüşdüyü ümidləri və artıq həyata keçirildiyini gördüyümüz davamlı sülh perspektivlərini açıq şəkildə əks etdirir. Biz, həmçinin Prezident İlham Əliyevin Anlaşma Memorandumunu və ikitərəfli münasibətlərin yüksəldilməsini qeyd etməsindən də xeyli məmnunuq.

Əlbəttə ki, regional enerji təhlükəsizliyi və regional bağlantı məsələləri də bizim üçün son dərəcə vacibdir. Buna görə də bu məsələlərin qeyd olunmasını da vurğulamaq istərdim.

**- Xanım Karlon, Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Bu barədə də fikirləriniz maraqlı olardı.**

- Bəli, biz Azərbaycan və Ermənistan hökumətləri tərəfindən ticarət əlaqələrinin bərpası istiqamətində atılan bu son addımları alqışlayır və məmnuniyyətlə qarşılayırıq. Bunlar 2025-ci il avqustun 8-də Prezident Trampın iştirakı ilə paraflanan sülhə dair Saziş layihəsinə hər iki tərəfin həqiqətən sadiq olduğunu göstərən mühüm etimad quruculuğu səyləridir. Ticarət və nəqliyyat marşrutlarının bərpası isə sözsüz ki, bütün regionun və hər iki ölkənin iqtisadiyyatlarına çox böyük müsbət təsir göstərəcək.

Beləliklə, bir daha vurğulayırıq ki, indiyədək göstərilən bu səyləri ürəkdən alqışlayır və məmnuniyyətlə dəstəkləyirik.

**- Sizin fikrincə, Zəngəzur dəhlizinin - TRIPP marşrutunun Cənubi Qafqaz regionu, o cümlədən Azərbaycan üçün əsas iqtisadi üstünlükləri nələrdir? Məsələn, tranzit potensialının artması, yeni iş yerlərinin yaradılması, logistika sahəsinin inkişafı baxımından...**

- "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) həqiqətən inqilabi bir layihədir ki, avqustun 8-dən əvvəl çox az adam onu mümkün hesab edirdi. Prezident Trampın səyləri sayəsində TRIPP, fikrimizcə, sülh sazişinin paraflanmasına mane olan sədlərin aradan qaldırılmasına kömək edən əsas amillərdən biri oldu.

Bu sənədin tarixi əhəmiyyət daşıdığını xüsusi olaraq vurğulamaq istərdim. Biz TRIPP-i Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı 30 ildən sonra ilk dəfə real şəkildə birləşdirən tam multimodal tranzit məkanı kimi təsəvvür edirik. Bu, həm beynəlxalq, həm də dövlətlərarası bağlantını təmin edəcək və həm bütövlükdə regionun, həm də hər iki ölkənin iqtisadiyyatı üçün çox böyük təsirə malik olacaq.

Biz inanırıq ki, TRIPP layihəsi regional bağlantıları, əsl mənada gücləndirmək potensialına malikdir. O cümlədən bu layihə Azərbaycanın region üçün mərkəzə çevrilmək niyyətinin reallaşdırılmasına kömək edəcək, eyni zamanda, Mərkəzi Asiya ilə Qərbi Avropa ölkələri arasında tranzitin inkişafına təkan verəcək.

**- ABŞ ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın 2026-cı il və növbəti illər üçün əsas prioritetləri nələrdən ibarətdir?**

- İki ölkə arasında imzalanmış Anlaşma Memorandumunda əməkdaşlıq üçün bir neçə sahə müəyyənləşdirilib. Onların bir çoxu iqtisadi yönümlüdür. Beləliklə, Memorandumla bağlı müzakirə etdiyimiz üç əsas prioritet var. Birincisi, bağlantıdır, buna enerji və nəqliyyat bağlantıları daxildir.

İkincisi, ticarət və investisiyalardır, yəni ikitərəfli ticarət və investisiya. Bu kateqoriyaya süni intellekt, kibertəhlükəsizlik və qarşılıqlı maraq doğuran digər sahələr də daxildir. Bundan əlavə, müdafiə və təhlükəsizlik məsələlərinin də müəyyən iqtisadi komponentləri ola bilər.

Biz strateji əməkdaşlığımızın daha konkret məzmununu formalaşdırmaq və nizamnaməmiz çərçivəsində nə görmək istədiyimizi müəyyənləşdirmək məqsədilə Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq edirik. Qeyd etdiyim səfərlərin bəziləri də iqtisadi yönümlü olub. Məsələn, deyə bilərəm ki, elə bir neçə gün öncə ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin (USTDA) nümayəndələri ilə burada görüşümüz oldu. Onlar Rəqəmsal İnkişaf və Nəqliyyat, İqtisadiyyat, Energetika və Xarici İşlər nazirliklərində görüşlər keçirdilər və birlikdə iştirak edə biləcəyimiz, qarşılıqlı maraq doğuran layihələr barədə müzakirələr apardılar. Düşünürəm ki, onlar görüşlərin çox uğurlu olduğu təsəvvürü və bir sıra layihə ideyaları ilə geri döndülər. Hazırda həmin məsələlərin detalları üzərində işləyirik. Məqsədimiz ölkələrimizə qarşılıqlı rifah gətirəcək, mümkün olduğu halda TRIPP ilə əlaqəli ideyalar tapmaqdır.

**- ABŞ, "ExxonMobil"in Azərbaycanda hasilatın səmərəliliyinin artırılması üçün qabaqcıl texnologiyaların tətbiqi ilə bağlı təşəbbüslərini necə dəstəkləyir?**

- "ExxonMobil" üçün mövcud olan imkanlar bizi də çox həvəsləndirir. Avqustun 8-də keçirilən görüşlər çərçivəsində Prezident İlham Əliyev və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff "ExxonMobil" ilə SOCAR arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanmasına şahidlik etdilər. Memorandumun bir hissəsi olaraq, "ExxonMobil" hazırda Azərbaycanda quruda yerləşən neft və qaz ehtiyatlarının potensial inkişafını qiymətləndirir və bu, həqiqətən çox əhəmiyyətlidir. Bu prosesin necə nəticələnəcəyini səbirsizliklə gözləyirik. Qiymətləndirmə hələ davam edir, lakin "ExxonMobil"in burada quruda aparacağı kəşfiyyat perspektivləri bizi çox ruhlandırır.

Biz "ExxonMobil"in səylərini, eləcə də enerji və qeyri-enerji sektorlarında burada biznes qurmaq istəyən bütün ABŞ şirkətlərini tam şəkildə dəstəkləyirik.

**- Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi kontekstində, qeyri-neft sektorlarına Amerika investisiyalarının artırılması istiqamətində hansı addımlar atılır?**

- ABŞ hökumətinin iqtisadi əməkdaşlıq alətləri birbaşa yardım xarakteri daşımır. Onlar qarşılıqlı iqtisadi mənfəəti dəstəkləmək məqsədilə özəl sektorun fəaliyyətini stimullaşdırmaq və katalizator rolunu oynamaq üçün nəzərdə tutulub. Bu, bizim yanaşmamızdır. Məhz buna görə də avqustun 8-də əldə olunmuş razılaşmaların iqtisadi komponentlərinin icrasında ABŞ-ın özəl sektoruna və şirkətlərinə böyük dərəcədə arxalanırıq. Strateji tərəfdaşlığımız və əməkdaşlıq memorandumu çərçivəsində müəyyənləşdirilmiş prioritetlərin bir çoxu neft sektorundan kənar sahələrə aiddir.

Biz artıq süni intellekt, nəqliyyat, logistika, rəqəmsal əməkdaşlıq, müdafiə və təhlükəsizlik kimi mövzular barədə danışmışıq. Bunların hamısı enerji sahəsindən kənar istiqamətlərdir. Biz bu sektorlar üzrə də fəaliyyət göstərəcəyik.

Bundan əlavə, burada olduğum yeddi ay ərzində artıq müşahidə etdiyim bəzi digər potensiallı sahələr də var. Məsələn, daşınmaz əmlak, maliyyə, turizm və kənd təsərrüfatını əməkdaşlıq üçün potensiallı sahələr kimi qeyd edə bilərəm. Nəticə etibarilə, ABŞ investorlarının buraya gəlmək istəməsi üçün cəlbedici şəraitin yaradılması əsasən Azərbaycanın öz öhdəliyindədir. Biz isə bunu dəstəkləmək üçün əlimizdən gələni edəcəyik.

**- Azərbaycanın "yaşıl enerji keçidi" layihələrində, xüsusilə külək və Günəş enerjisi sahəsində Amerika şirkətlərinin iştirakının genişləndirilməsi planlaşdırılırmı?**

- Birləşmiş Ştatlar dünyanın ən güclü və ən innovativ enerji sektoruna malikdir. Yeni Anlaşma Memorandumunun da əsas sütunlarından birini enerji sahəsində əməkdaşlıq təşkil edir.

Bu baxımdan, ABŞ və Azərbaycan şirkətləri arasında əməkdaşlığın artmasını səbirsizliklə gözləyirik. Bildirmək istərdim ki, əgər ABŞ şirkətlərinin gəlir əldə edə biləcəkləri, yatırım edə biləcəkləri və qabaqcıl texnologiyalarını paylaşa biləcəkləri layihələr mövcuddursa, biz onların iştirakını dəstəkləyəcəyik.

**- Orta Dəhliz çərçivəsində ABŞ ilə Azərbaycan arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

- Düşünürəm ki, perspektivlər çox müsbətdir. Daha əvvəl də qeyd etdiyim kimi, investisiyalarımızın bir hissəsini TRIPP ilə əlaqələndirməyə çalışırıq. Bizim fikrimizcə bu, məntiqlidir. Biz uzun illərdir ki, regionda, xüsusilə də enerji sektorunda iqtisadi inteqrasiyanı dəstəkləmişik və dəstəkləyirik.

Ötən ilin sentyabr ayında Azərbaycana gələn biznes nümayəndə heyəti konkret olaraq Orta Dəhliz, eləcə də nəqliyyat və logistika sahələrini müzakirə edib. Bu da ABŞ şirkətlərini məhz həmin sahələr üzrə imkanları görmək üçün buraya gətirməyimizin bir nümunəsidir. Açığı, düşünürəm ki, bundan sonra da özəl sektor nümayəndələrinin buraya gəlişi getdikcə artacaq və biz bu sahədə daha çox imkan müəyyən edə biləcəyik.

**- ABŞ Azərbaycan iqtisadiyyatının rəqəmsal transformasiyasını hansı şəkildə dəstəkləyir? Amerika IT şirkətlərinin və vençur investorlarının bu sahəyə cəlb edilməsi nəzərdə tutulurmu? ABŞ-ın süni intellekt sahəsində təcrübəsini nəzərə alaraq, bu istiqamətdə Azərbaycanla hansı əməkdaşlıq layihələrinin həyata keçirilməsi mümkündür?**

- Şübhəsiz ki, bu, bizim üçün diqqət mərkəzində olan bir sahədir. Qeyd etdiyim kimi, bu, Anlaşma Memorandumunda xüsusi olaraq yer alan istiqamətlərdən biridir. Buradakı həmsöhbətlərimdən də eşitmişəm ki, Azərbaycan ABŞ şirkətləri ilə işləməyə böyük maraq göstərir.

ABŞ bu sahədə dünyanın ən qabaqcıl texnologiyalarına malik olduğuna görə, biz həmin texnologiyaları buraya gətirmək istəyirik. Biz süni intellekt, kibertəhlükəsizlik və rəqəmsal sahələr üzrə qlobal liderik.

Hətta rəqəmsal inkişaf və nəqliyyat naziri ilə görüşüm zamanı onun Vaşinqtona son səfəri barədə danışdıq. O, təkcə Vaşinqtonda olmayıb, həm də Kaliforniyanı ziyarət etmişdi. Orada əməkdaşlıq perspektivləri ilə bağlı imkanlar isə həqiqətən sonsuzdur.

Əlbəttə, sonda sərmayə yatırmaq barədə qərar ABŞ şirkətlərinin özlərindən asılıdır.

Lakin səfirliyin məqsədlərindən biri də Azərbaycandakı imkanları onlara göstərmək və bu səyləri dəstəkləməkdir. Bir sıra nazirliklərdən, məsələn, burada mövcud olan zəngin enerji resursları, o cümlədən bulud məlumat mərkəzi (cloud data hub) və data mərkəzlərinin yaradılması imkanları barədə eşitmişəm. Məhz buna görə də, qarşıdakı aylarda bu imkanları daha ətraflı şəkildə araşdıracağıq.

**- Amerika biznesi Azərbaycan Respublikasında azad edilmiş ərazilərin bərpasında və inkişafında hansı şəkildə iştirak edə bilər?**

- Mənim ötən ilin oktyabr ayında diplomatik korpusun bəzi üzvləri ilə birlikdə Füzuli, Cəbrayıl, Zəngilan və bir sıra digər yerlərə səfər etmək imkanım oldu. Orada bərpa və yenidənqurma istiqamətində gördüyüm irəliləyiş məni həqiqətən çox təsirləndirdi. Həmin səfər zamanı hava limanlarını, dəmir yollarında və avtomobil magistrallarında həyata keçirilmiş işlərin miqyasını görmək mümkün oldu.

Biz orada yenidən qurulmuş məscidləri və sıfırdan inşa edilmiş digər infrastrukturları da müşahidə etdik. Bunları şəxsən görmək mənim üçün çox təsirli oldu. Xüsusilə də minatəmizləmə və oradakı digər çətinliklərə baxmayaraq görülmüş böyük işlər diqqətimi çəkdi.

Düşünürəm ki, ABŞ şirkətləri mühəndislik və infrastruktur da daxil olmaqla, bütün sahələr üzrə texniki təcrübəyə malikdir. ABŞ-dan Azərbaycana gələn ziyarətçilərin sayı artdıqca, bu cür investisiyaların burada reallaşması ehtimalı da yüksələcək. Buna görə də məqsədimiz iqtisadi əməkdaşlıq üçün bu imkanları davamlı şəkildə formalaşdırmaq və müəyyənləşdirməkdir.

**- Qlobal inflyasiya və bazarlardakı qeyri-sabitlik şəraitində, ABŞ və Azərbaycan arasında hansı maliyyə-iqtisadi əməkdaşlıq formaları daha dayanıqlı və perspektivli hesab olunur?**

- Düşünürəm ki, Anlaşma Memorandumu gələcək iqtisadi əməkdaşlıq üçün çox əla bir təməl yaradır. Çünki o, olduqca genişdir və üç sahəni əhatə edir. Lakin əslində mövzuların çox geniş spektrini - bağlantıdan müdafiə və təhlükəsizliyə, eləcə də rəqəmsal inkişaf, süni intellekt və kiber sahələrə qədər hər istiqaməti əhatə edir. Buna görə də hesab edirəm ki, Memorandumda müəyyənləşdirdiyimiz əsaslar gələcək əməkdaşlıq üçün möhkəm bir təməl olacaq.

Sənəddə həmçinin qeyd olunur ki, biz yalnız ikitərəfli deyil, eyni zamanda, iqtisadi və ticarət əməkdaşlığı sahəsində regional səviyyədə də birgə fəaliyyət göstərəcəyik. Düşünürəm ki, bu da əməkdaşlığımız üçün yaxşı bir bazadır. Əməkdaşlığımızın ölkələrimiz üçün faydalı olacağına əminəm.

# ABŞ - Aİ "ticarət müharibəsi"...



## Rüsum tətbiq edilməyəcək

ABŞ ilə Aİ arasındakı gərginlik səngimək üzrədir. Belə ki, Prezident Donald Tramp Avropa ölkələrinə fevralın 1-də qüvvəyə minməsi planlaşdırılan tarifləri dayandırıb. Bununla bağlı o, "Truth" sosial şəbəkəsində yazıb. Bildirib ki, fevralın birində qüvvəyə minməsi planlaşdırılan tarifləri tətbiq etməyəcəyək: "NATO-nun Baş katibi Mark Rutte ilə keçirdiyim çox məhsuldar görüşə əsasən, Qrenlandiya və əslində, bütün Arktika bölgəsi ilə bağlı gələcək razılaşmanın çərçivəsini formalaşdırdıq".

Tramp bildirib ki, bu həll yolu tətbiq olunarsa, Amerika Birləşmiş Ştatları və bütün NATO ölkələri üçün əla olacaq: "Qrenlandiya məsələsi çərçivəsində "Qızıl qübbə" ilə bağlı əlavə müzakirələr aparılır. Müzakirələr irəlilədikcə əlavə məlumatlar təqdim ediləcək. Vitse-prezident C.D. Vens, Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiv Uitkoff danışıqlara cavabdeh olacaqlar".

Xatırladaq ki, bundan öncə ABŞ Prezidenti Donald Tramp Qrenlandiyanın satın alınması iddialarına qarşı çıxan və adaya qoşun yerləşdirən Danimarka, Böyük Britaniya, Hollandiya, Norveç, Finlandiya, Fransa, Almaniya və İsveçə qarşı 1 fevral 2026-cı il tarixindən etibarən 10 faizlik tarif tətbiq edəcəyini açıqlamışdı. Bu addım, həmin ölkələrin bölgədəki fəaliyyətlərinə cavab olaraq atılmışdı və iyunun 1-nə qədər razılıq əldə olunmayacağı təqdirdə rüsumların 25 faizə yüksələcəyi bildirilmişdi.

**Aİ hərəkətə keçdi...**

Vurğulayaq ki, Trampın rüsum tətbiqi planı Avropa tərəfindən də sükutla qarşılanmamışdı. Avropa Parlamenti Trampın Qrenlandiya ilə bağlı hədələrindən sonra Avropa İttifaqı ilə ABŞ arasında ticarət sazişinin ratifikasiyası prosesini dondurmuşdu. AP-nin Sosial-demokratlar qrupunun (S&D) sədri İraçe Qarsia Peres bildirmişdi ki, əksər siyasi qruplar 2025-ci ildə Aİ ilə ABŞ arasında bağlanmış ticarət sazişinin ratifikasiyasının dayandırılmasını dəstəkləyiblər. Aİ, həmçinin Amerika mallarına tarifləri nəzərdən keçirdiyini bildirmişdi.

Qeyd edək ki, ABŞ Prezidenti dəfələrlə Qrenlandiyanın ABŞ-a birləşdirilməsinin zəruriliyi barədə bəyanatlar verib. O, ilk prezidentlik dövründə də adanın satın alınması təklifini irəli sürüb. 2025-ci ilin martında isə onun anneksiya edilə biləcəyinə əminliyini bildirib. Qrenlandiya Danimarkanın tərkibinə muxtar ərazi statusu ilə daxildir. 1951-ci ildə Vaşinqton və Kopenhagen NATO üzrə müttəfiqlik öhdəliklərinə əlavə olaraq Qrenlandiyanın müdafiəsi haqqında Müqavilə imzalayıblar. Həmin sənədə əsasən, ABŞ adanı mümkün təcavüzdən müdafiə etmək öhdəliyini üzərinə götürüb.

**Tramp: Güc tətbiq etməyəcəyik...**

Davos Dünya İqtisadi Forumundakı çıxışı zamanı ABŞ prezidenti Donald Tramp Qrenlandiyanı ələ keçirmək üçün hərbi variantı istisna edərək, ABŞ-ın "dayandırıla bilməyəcəyi" halda, "güc tətbiq etmək istəmədiyini" bildirdi. Bunun əvəzinə, Avropanın adanı Vaşinqtonun nəzarətinə keçirmək üçün dərhal danışıqlara başlaması lazım olduğuna dair fikir bildirdi. Tramp Şimali Amerikanı nüvə təhdidlərindən qorumaq üçün nəzərdə tutulmuş Arktika üzərində Qızıl Günbəz raketdən müdafiə sisteminin tikiləcəyini elan etdi. O, strateji əhəmiyyətli bölgənin təhlükəsizliyini yalnız ABŞ-ın təmin edə biləcəyini, NATO-nun isə hazırkı formasında bunu etmək imkanının effektivliyinə şübhə ilə yanaşdığını deyib.

Qeyd edək ki, Donald Tramp və NATO-nun Baş katibi Mark Rutte arasında qapalı görüşdən sonra ABŞ prezidenti "TruthSocial"da Qrenlandiya və bütün Arktika bölgəsi ilə bağlı "çərçivə razılaşmasının" əldə olunduğunu elan edib. Sazişə, həmçinin "Qızıl Günbəz" raketdən müdafiə sisteminin yerləşdirilməsi və mineral ehtiyatlara çıxış daxildir.

**Hərbi bazalar yerləşir, adanın statusu isə...**

Mətbuata açıqlamasında Tramp sazişləri "sonsuz bir razılaşma" adlandırıb. Razılaşmanın konkret parametrləri qeyri-müəyyən olaraq qalır. "The New York Times" və "Axios" qəzetlərindəki mənbələrə görə, adanın birbaşa satışı və ya bayrağın dəyişdirilməsi saziş planında yer almır. Təklif olunan kompromis Kiprdəki Britaniya bazalarının statusunu xatırladır: ABŞ hərbi bazalar üçün fərdi kiçik torpaq sahələri üzərində suverenlik əldə edə bilər - bu haqq bütövlükdə adaya şamil olunmayacaq. Plan 1951-ci il müdafiə müqaviləsini yeniləmək, ABŞ-ın hərbi mövcudluğunu genişləndirmək və Arktikada Çin və Rusiyanın təsirinə qarşı birgə mübarizə aparmağı özündə ehtiva edir.

NATO-nun Baş katibi Mark Rutte Fox News-a verdiyi müsahibəsində adanın ABŞ-ın tam nəzarətinə verilməsi məsələsinin görüşdə qaldırılmadığını bildirib. Alyansın mətbuat katibi Allison Hart mediaya bildirib ki, Rutte Davosdakı görüşləri zamanı Trampa Qrenlandiyanın suverenliyi ilə bağlı heç bir güzəşt təklifi təqdim etməyib.




**1,7 trilyon dollarlıq ticarət dövriyyəsi çökə bilər**

Trampın Qrenlandiyanın ABŞ yurisdiksiyasına verilməsinə qarşı çıxan səkkiz Avropa ölkəsinə qarşı ticarət tariflərini ləğv etməsi də birmənalı qarşılanmayıb - bəzi ekspertlər, bunun AP-nin ABŞ-a qarşı "tarif bazukası" hücumuna bənzədilən qərarı ilə əlaqələndirirlər. Çünki ən yaxın müttəfiqlər arasındakı gərginlik transatlantik münasibətləri pozmaqla yanaşı, ən böyük Qərb iqtisadiyyatlarını çökdürmək bahasına da başa gələ bilər. İqtisadçılar hesablayırlar ki, ticarət müharibəsi iki iqtisadiyyatın təxminən 1,7 trilyon dollarlıq ticarət dövriyyəsini çökdürə və həm Avrozonada, həm də ABŞ-ın özündə tənəzzülə səbəb ola bilər. Tramp bu tədbirləri Amerikanın Avropadakı təhlükəsizlik xərclərini kompensasiya etmək ehtiyacı ilə əsaslandırıb.

Aİ-nin ABŞ-a qarşı əlində tutduğu 2025-ci ilin yayında əldə edilən ABŞ-AB ticarət sazişinin dondurulması da Vaşinqtonun maraqlarına uyğun deyil - razılaşmaya görə, Avropa 750 milyard dollar dəyərində Amerika enerji məhsulları almalı və Avropa mallarına tarif endirimləri müqabilində ABŞ iqtisadiyyatına 600 milyard dollar birbaşa investisiya yönəltməli idi. Aİ-nin bu razılaşmanı dondurması isə ABŞ-ın iqtisadiyyatına birbaşa təsir göstərə bilərdi.

**Hamı razıdı, Qrenlandiya narazı**

ABŞ ilə Avropa arasındakı bu "ticarət müharibəsi"nin bitməsi Qərb iqtisadiyyatına təsirsiz ötüşmədi. Ticarət müharibəsinin bitməsi xəbəri fond bazarlarında coşğuya səbəb oldu. Avropa paytaxtları ehtiyatlı nikbinliklə reaksiya verdi. Danimarka xarici işlər naziri Lars Lökke Rasmussen güc təzyiqinin rədd edilməsini alqışlayıb və qeyd edib ki, "gün səhərkindən daha yaxşı başa çatdı". O, Trampın güc və tariflərdən imtina etməsini "müsbət siqnal" adlandırıb, Daenimarka krallığının "qırmızı xətlərinin" (Qrenlandiya üzərində suverenlik) dəyişməz qaldığını vurğulayıb.

Narazılığını açıq şəkildə bildirən yeganə tərəf Qrenlandiyanın özüdür - WSJ-in məlumatına görə, adanın nümayəndələri taleylərinin onların iştirakı olmadan qapalı qapılar arxasında həll olunmasından narazıdırlar...

***P.İSMAYILOV***

# İranda nisbi sakitlik yaransa da...

## Beynəlxalq ictimaiyyət prosesləri diqqət mərkəzində saxlayır

**İran valyutasının kəskin ucuzlaşması səbəbindən ötən ayın sonlarında ölkədə başlayan etiraz aksiyaları nisbətən sakitləşib. İlk olaraq paytaxt Tehranda tacirlərin etirazları ilə başlayan aksiyalar az sonra ölkənin əksər böyük şəhərlərinə yayılmışdı.**

### Rəsmi məlumata əsasən, 3117 nəfər öldürülüb

Hadisələr zamanı müxtəlif mənbələr İranda 10 mindən çox insanın öldüyünü bildirsələr də, xəbər rəsmi səviyyədə təkzib olunub. İranın Məhkəmə Tibbi Ekspertizasının məlumatına görə, son iğtişaşlar nəticəsində ölənlərin sayı 3117 nəfərə çatıb. Onların arasında mülki şəxslər üstünlük təşkil edir. Bu, 2025-ci ilin dekabr ayının sonlarında etirazlar başlayandan bəri İran hakimiyyəti tərəfindən açıqlanan ilk rəsmi məlumatdır.

İnsan haqları üzrə "Human Rights Activists News Agency" təşkilatı isə ölənlərin sayının 4560 nəfər olduğunu yazıb. Həmçinin etirazlar zamanı 460-dan çox dövlət binasının və 480-dən çox məscidin zərər gördüyü və ya yandırıldığı, 700-dən çox banka hücum edildiyi bildirilib.

Lakin ölkədə gərginlik hələ tam səngiməyib, bir sıra ərazilərdə hərbi və fövqəladə rejim tətbiq olunub. Məsələn, Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbrizin əsas yolu sayılan Vəli-əsr prospektində yerləşən dövlət məktəbləri bağlanıb. Şəhərdə hərbi və təhlükəsizlik qüvvələri, xüsusilə, İran İnqilab Keşikçiləri Qvardiyası (SEPAH) vəziyyətə nəzarət edir. Məlumatlara əsasən, Təbrizdə yaşayış və hökumət binalarının damlarına silahlı şəxslər yerləşdirilib.

### "Vaşinqton İranla danışıqlar aparmır"

İrandakı hadisələrlə bağlı beynəlxalq ictimaiyyət də ciddi narahatlığını ifadə edirdi. Hətta ABŞ Prezidenti Donald Tramp İrana qarşı güc tətbiqini ciddi şəkildə nəzərdən keçirdiyini açıqlamışdı. Lakin o zaman tərəflər arasında diplomatik təmaslar oldu, Tramp edamların dayandırılmasının qarşılığında İrana hərbi müdaxilə qərarı vermədi. Bununla belə, İrandakı vəziyyət fonunda yanvarın 20-də "USS Abraham Lincoln" atom aviadaşıyıcısının başçılıq etdiyi ABŞ Hərbi Dəniz Qüvvələrinin (HDQ) zərbə qrupu Yaxın Şərqə doğru hərəkət edərək Hind okeanına daxil olub. Bu barədə "İnterfaks" agentliyi "Marine Traffic" resursuna istinadən məlumat yayıb. "Tomahawk" qanadlı raketləri ilə təchiz edilmiş "USS Spruance", "USS Michael Murphy" və "USS Frank Petersen" esmineslərinin müşayiət etdiyi aviadaşıyıcı Cənubi Çin dənizindən Hind okeanına keçərək Malakka boğazından çıxışı tamamlayıb.

ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmi qruplaşması qərb istiqamətində hərəkət edib. "USS Abraham Lincoln" aviadaşıyıcısında üç eskadrilya "F/A-18" döyüş qırıcısı və bir eskadrilya beşinci nəsil "F-35C" qırıcıları yerləşdirilib. Gəminin Yaxın Şərqə göndərilməsi barədə əvvəllər "Al-Jazeera" telekanalı məlumat vermişdi. Qeyd edilmişdi ki, bu, Pentaqonun regionda mövcudluğunu gücləndirməyə və İrana qarşı potensial əməliyyatlar üçün zəruri olan dəniz balansını bərpa etməyə hazır olduğunu nümayiş etdirir.

Bu arada ABŞ Prezidentinin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Uitkoff "CNBC" telekanalına müsahibəsində deyib ki, Vaşinqton İranla danışıqlar aparmır, lakin zaman-zaman iki tərəf arasında təmaslar olub. Tehranla razılaşmanın əldə olunacağına inamını ifadə edən diplomat əks halda "bütün dünya üçün pis günlərin başlayacağını bildirib. "Ümid edək ki, konsensus əldə olunacaq", - deyə Stiven Uitkoff əlavə edib.



### Aİ Tehrana qarşı yeni sanksiyalar hazırlayır

Avropa İttifaqı (Aİ) isə İrandakı etirazların yatırılmasında güc tətbiqinə cavab olaraq Tehrana qarşı yeni məhdudiyyətlər hazırlayır. Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Avropa Parlamentində İranla bağlı dinləmələr zamanı bəyan edib ki, Aİ artıq İrana qarşı insan hüquqlarının pozulması, nüvə fəaliyyəti və Ukraynaya qarşı müharibədə Rusiyaya dəstəyi üçün geniş sanksiyalar tətbiq edib. Hazırda Aİ İranın pilotsuz uçuş aparatları (PUA) və raketlərinin istehsalında istifadə edilə bilən komponentlərə əlavə ixrac məhdudiyyətləri təklif edir, həmçinin etirazçılara qarşı təzyiqlərlə əlaqədar yeni sanksiyalar hazırlayır. "İran son illərin ən böyük nümayişlərini yaşayır. İştirakçılar azadlıq, ləyaqət və öz gələcəklərini müəyyən etmək hüququ tələb edirlər", - deyə o bildirib və əlavə edib ki, hakimiyyət dinc etirazlara zorakılıqla cavab verir, minlərlə insan İran rəsmilərinin özlərinin etiraf etdikləri kimi, son həftələrdə öldürülüb. O, həmçinin qeyd edib ki, Aİ Tehrandan bütün ədalətsiz saxlanılan şəxslərin dərhal azad olunmasını, internetə çıxışın bərpasını və zorakılığın dayandırılmasını tələb edib. Kallasın sözlərinə görə, İran hakimiyyətinin hərəkətləri regional təhlükəsizliyə təhdid yaradır və gələcək eskalasiya riskini artırır.

Avropa Parlamentinin bəzi üzvləri Avropa ölkələrində İran səfirliklərinin fəaliyyətinin məhdudlaşdırılmasını da tələb edib. Debatlar zamanı çıxış edən parlament üzvləri Avropa Komissiyasını İrana qarşı yeni ciddi sanksiyalar tətbiq etməyə və İran İnqilab Keşikçiləri Korpusunu (SEPAH) terror təşkilatı kimi tanımağa çağırıblar. Kallas isə vurğulayıb ki, SEPAH-ın terror təşkilatı kimi tanınması müzakirə mövzusu olaraq qalır, lakin Aİ-nin bütün üzv dövlətləri arasında məsələ ilə bağlı hələ konsensus əldə edilməyib. O, həmçinin söyləyib ki, İrandakı vəziyyət və etirazçılara qarşı təzyiqlər növbəti həftə Aİ Şurasının iclasında nəzərdən keçiriləcək.

### İnternet bərpa olunacaq

Xatırladaq ki, etiraz aksiyaları və iğtişaşlar səbəbindən yanvarın 8-dən etibarən İranda internet kəsilmişdi. Artıq İran Prezidenti Məsud Pezeşkian 11 günlük kəsintidən sonra internetə giriş məhdudiyyətinin aradan qaldırılmasına çağırıb: "Onlayn ticarəti asanlaşdırmaq və kommunikasiya məhdudiyyətini aradan qaldırmaq üçün İran Təhlükəsizlik Şurasının katibi Əli Lariciniyə mümkün qədər tez internetə girişi bərpa etməyi tövsiyə etdim". İnternetin bu həftənin sonuna qədər bərpa olunacağı bildirilir.

Bundan əlavə, Pezeşkian ötən ilin sonundan ölkəni bürüyən etirazlarda saxlanılan iştirakçıların işlərinə xüsusi diqqət və ədalətlə baxılmasına çağırıb. "Son hadisələrlə bağlı saxlanılan şəxslərin işlərində maksimum dəqiqlik və ədalət üstünlük təşkil etməlidir", - deyən İran Prezidenti əlavə edib ki, qətllərdə və zorakı əməllərdə günahkar olan başçılar və təqsirlilər ən kiçik güzəşt olmadan müvafiq məhkəmə orqanları qarşısına çıxmalıdırlar.

***N.BAYRAMLI***

# MDB-də növbəti yarpaq tökümü

## Moldova çıxış proseduruna start verib

Sovet İttifaqının süqutundan sonra bir çox müttəfiq respublikaları özündə birləşdirən Müstəqil Dövlətlər Birliyinin (MDB) cəlbediciliyi azalır. Zaman-zaman bu və ya digər üzv dövlətin qurumun sıralarını tərk etməyə qərar verdiyi barədə xəbərlər yayılır.

Qeyd edək ki, Müstəqil Dövlətlər Birliyinin əsası üç dövlət - Rusiya, Ukrayna və Belarus tərfindən 1991-ci il dekabrın 8-də qoyulub. Təşkilatın üzv dövlətlər arasında siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək, həmçinin SSRİ-nin "mədəni dağılmasını" təmin etmək, onun mülkiyyətinin keçmiş ittifaq respublikaları arasında bölüşdürmək məqsədilə yaradıldığı bildirilirdi. Sonralar Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan 21 dekabr 1991-ci ildə Rusiya, Ukrayna və Belarus ilə birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəliblər. Azərbaycan parlamenti bu qərarı yalnız 1993-cü ilin sentyabrında ratifikasiya edib və bununla da ölkəmiz MDB-nin tamhüquqlu üzvü olub. 1993-cü ilin oktyabrında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında Rusiya ordusunun Gürcüstana daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxıb. Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. Ukrayna 2014-cü ilin mart ayında Rusiya ordusunun Krıma daxil olmasından sonra MDB-nin sıralarını tərk edib.

### MDB-də ən zəif bənd

Hazırda isə MDB-ni tərk etməyə "yeni namizəd" var - Moldova Respublikası. Kişineu qurumun sıralarını tərk etmək prosedurlarına rəsmi qaydada strat verib. Prezident Maya Sandu ölkəsinin MDB-dən çıxmasına israrlı mövqe sərgiləyir. Verilən məlumatlara görə, Moldova hökuməti MDB-də üzvlüyünün əsasını təşkil edən üç baza sənədinin denonsasiyası təşəbbüsünə başlayıb. Bunlar MDB-nin Nizamnaməsi, MDB-nin yaradılması haqqında Saziş və bu sənədlərə aid əlavə hüquqi aktlardan ibarətdir.

Hazırda müvafiq prosedurlarla bağlı qanunverici orqanda müzakirələr aparılır. Parlamentin müvafiq sənədlərin ləğvini yaxın vaxtlarda təsdiqləyəcəyi gözlənilir. Bununla da Moldovanın MDB-nin üzvü statusu hüquqi qüvvəsini itirmiş olacaq. Prosesin cari il fevralın ortalarına qədər tamamlanacağı bildirilir. Xatırladaq ki, bundan əvvəl Moldova parlamenti MDB ilə bağlı ikinci dərəcəli bəzi sazişləri, o cümlədən viza rejimi, vergi əməkdaşlığı, inzibati prosedurlar və s. sənədləri ləğv edib. Bütövlükdə, indiyədək ləğv edilmiş sənədlərin sayı 60-dan çoxdur.



### Avropaya inteqrasiya siyasətinin tərkib hissəsi

Ekspertlər Moldovanın MDB ilə yollarını ayırmağa qərar verməsini bu ölkənin Avropaya inteqraasiya siyasətinin tərkib hissəsi olduğunu bildirirlər. Prezident Maya Sandu və ölkənin digər yüksəksəviyyəli rəsmiləri Avropa İttifaqına (Aİ) üzvlüyün ölkənin strateji seçimi olduğunu bəyan ediblər. Kişineunun son vaxtlarda bu istiqamətdə fəaliyyətləri daha da intensivləşdirib. Ölkə 2022-ci ildən etibarən MDB-nin fəaliyyətində faktiki olaraq iştirak etmir, təşkilatın iclaslarına qatılmır, mexanizmlərindən istifadə etmir.

Eyni zamanda, Brüssel də Kişineunun istəyinə yaşıl işıq yandırır. Deyə bilərik ki, inteqrasiya yolunda artıq müəyyən yol keçilib. Belə ki, 2022-ci ildə bu ölkəyə Ukrayna ilə birlikdə Aİ üzvlüyünə namizəd statusu verilib. Ötən ilin sonlarında Avropa Komissiyası Aİ-yə üzv olmaq istəyən ölkələrdə bu istiqamətdə vəziyyətin qiymətləndirildiyi Genişlənmə üzrə illik hesabatı (Enlargement Package 2025) dərc edib. Sənəddə genişlənmənin Avropa İttifaqının əsas prioriteti olaraq qaldığı və yeni üzvlərin daxil olmasının getdikcə daha real perspektivə çevrildiyi qeyd olunub. Hesabatda Ukrayna və Moldovanın Avropa İttifaqına inteqrasiya yolunda inamlı irəliləyiş nümayiş etdirdiyi vurğulanıb.

Bundan başqa, Aİ-nin kasıb büdcəyə malik Moldovaya dəstəyi artırdığı müşahidə edilir. İndiyədək Avropa Komissiyası bu ölkədə müxtəlif layihələrin dəstəklənməsinə böyük həcmlərdə maliyyə yardımı ayırıb. O cümlədən Moldova da Aİ-nin rouminq zonasına daxil edilib. Avropa Komissiyasının müvafiq qərarına əsasən, 1 yanvar 2026-cı ildən etibarən Ukrayna və Moldova vətəndaşları əlavə xərclər olmadan öz milli operatorlarından 27 Aİ ölkəsində zənglər edə bilər, SMS göndərə və mobil internetdən istifadə edə bilərlər. Oxşar şərtlər Avropa İttifaqı ölkələrindən olan abunəçilər üçün Ukrayna və Moldovada olarkən də tətbiq ediləcək. Eyni zamanda, Avropa İttifaqının digər ölkələrin operatorlarına məxsus nömrələr üçün rouminq şərtləri və tələbləri Moldova və Ukraynaya da şamil olunacaq.

Beləliklə, Moldova ilə Aİ-nin inteqrasiyası dərinləşir və bir növ geridönməz prosesə çevrilir. Əsas sual isə belədir: Bəs bu inteqrasiya hansı tərəf üçün hansı anlamı daşıyır? Moldovanın Aİ-də təmsilçiliyinin qurumun iqtisadi çəkisini artıracağını düşünmək sadəlövlük olardı. Çünki bu ölkə məhdud iqtisadi-maliyyə imkanlarına malikdir. Əksinə, Aİ-də təmsilçilik Moldova üçün iqtisadi dividentlər qazanmaq anlamına gəlir. Bu əməkdaşlıqdan Aİ-nin gözləntiləri isə sırf siyasi avantajlardır. Qurum genişlənmə siyasəti aparmaqla hədəf coğrafiyalarda möhkəmlənmək niyyəti güdür.

*Mübariz FEYİZLİ*



# Sudanda müharibə 8 milyondan çox uşağı təhsildən məhrum edib

Sudanda müharibə 8 milyondan çox uşağı təhsildən məhrum edib. AZƏRTAC xəbər verir ki, bu, beynəlxalq "Save the Children" (Uşaqları qoruyun) təşkilatının yayılan bəyanatında qeyd olunub. Bəyanatda bildirilir ki, təhsil yaşında olan uşaqların təxminən yarısı, yəni 8 milyondan çox uşaq 484 gün ərzində dərsə getməyib.

Bu, COVID-19 pandemiyası zamanı məktəblərin bağlanma müddətini belə geridə qoyaraq dünyada ən uzunmüddətli fasilədir.

"Sudan dünyanın ən ağır təhsil böhranlarından biri ilə üzləşir. Bir çox məktəblər bağlanıb, digərləri isə münaqişə nəticəsində zərər görüb və ya sığınacaq kimi istifadə olunur", - deyə bəyanatda deyilir.

Bildirilir ki, ərazisinin böyük hissəsi Çevik Dəstək Qüvvələrinin nəzarətində olan Darfur bölgəsi daha çox zərər çəkib. Şimali Darfur əyalətində 1100-dən çox məktəbdən yalnız 3 faizi fəaliyyət göstərir. Qərbi Kordofan əyalətində isə hazırda məktəblərin cəmi 15 faizi işləyir, bir çox müəllim isə əməkhaqlarının verilməməsi səbəbindən işini tərk edib.

Sudan üç ildir ordu ilə Çevik Dəstək Qüvvələri arasında gedən müharibənin ağır nəticələrini yaşayır. Bu münaqişə on minlərlə insanın həlak olmasına, milyonlarla insanın didərgin düşməsinə səbəb olub və ölkənin səhiyyə və təhsil infrastrukturunun böyük hissəsini məhv edib.

# Tənhalıqdan qurtuluş

## Orxan Pamukun "Qara kitab" romanı haqqında

əvvəli ötən saylarımızda

Yazıçı Şeyx Qalibin adını baş qəhrəmanına verməklə kifayətlənməyib - "Qara kitab" mövləvi şairin "Hüsnü-eşq" adlı mistik-alleqorik poemasının dekonstruksiyasıdır. Yenə Qismətı dinləyək:

"Bunu biləndən sonra tapıb həmin məsnəvini oxudum. "Hüsnü-eşq"in məzmunu belədir ki, Sevgioğulları qəbiləsində bir gecə iki uşaq dünyaya gəlir. Oğlana Eşq, qıza Hüsn adı qoyurlar, onları göbəkkəsmə eləyirlər, necə deyərlər, körpəlikdən bir-birinə nişanlayırlar. Həddi-büluğa çatanda onlar Ədəb məktəbinə gedirlər, burada Molla Cünun adlı müəllimdən dərs alırlar. Əksər klassik mətnlərdə olduğu kimi gənclər məktəbdə bir-birilərinə aşiq olurlar. Başlayırlar Məna adlı bağçada görüşüb söhbətləşməyə, bu bağçada Süxən (söz) adlı bir müdrik insan onlara kömək edir. Amma sonra Heyrət adlı bir nəfər aşiqlərin görüşməsinə mane olur. Gənclər məktublaşırlar, nəhayət, oğlanın böyükləri qərara gəlirlər ki, gedib qızı istəsinlər. Amma qızın ailəsi əvvəlcə söz versə də, sonra onların evlənməyinə razı olmur. Deyirlər ki, Eşq əgər Hüsnü sevirsə, Qəlb ölkəsinə gedib Kimyanı gətirməlidir. Kəsəsi, Eşq yola düşür, çətinliklərlə qarşılaşır, maneələrdən keçir və s. Pamukun romanı təsəvvüf simvolları ilə dolu, şifrələrlə zəngin bu məsnəvinin "sökülüb-yığılmasıdır". Romanın qəhrəmanı Qalibin adı məsnəvi müəllifinin ismidir, romanda adı çəkilən yerlərdən biri - Şəhriqəlb apartmanı məsnəvidəki Qəlb ölkəsinə eyhamdır. Qalibin romanın əvvəlindəcə itən həyat yoldaşının adı - Röya da bu mənada əsərin, dekonstruksiya edilən ana mətnin, yəni məsnəvinin mistik məzmununa uyğundur. Bu, artıq üslubi simmetriyadır. Bir də, əlbəttə, romanda köşə yazılarını oxuduğumuz sirli qəhrəman Cəlal Salik var. Salik soyadı da təsadüfi deyil, mənası "təsəvvüf yolçusu" deməkdir. Xırdalığa çox getmək olar. Məncə, əsas məsələ odur ki, Pamuk bu romanda klassik, mistik bir Şərq mətnini dekonstruksiya edib və Floberdən Dostoyevskiyə, Edqar Podan Marsel Prusta qədər saysız-hesabsız irili-xırdalı Qərb müəllifləri ilə həmin mətnin əsasında dialoq yaradıb. Bununla da iş bitmir, roman həm də Türkiyə haqqında dəhşətli həqiqətlərə işıq tutur..."

Yeri gəlmişkən, əgər "Qara kitab"da Orxan Pamuk Əttar, Mövlana, Nəsimi, Qalib kimi təsəvvüf yolçularıyla mistik əlaqə qurursa, sonrakı illərdə yazdığı "Mənim adım qırmızı" romanında Nizaminin "Xosrov və Şirin", Caminin "Yusif və Züleyxa" poemalarına, "Qar" romanında isə Firdovsinin "Şahnamə" dastanlar silsiləsində yer almış "Rüstəm və Söhrab" poemasına istinad eləyir.

"Qara kitab"da əmisi oğlu Cəlal Salikin ömrünə səyahətə çıxan advokat Qalib o səfərin sonunda özünü tapır, Cəlalın güzgüsündə özünə baxa-baxa cəlallaşır - eynən Əttarın otuz quşu da Qaf dağına yetişəndə bir-birində güzgülənib əks olunur, hər quş başqalarının aynasında özünü görür, hər kəs başqalarında özüylə tapışıb özünə qovuşur, beləcə, özünü özgədə tapan, özgənin qəlbinə köçüb özgəsiləşən, bir-birində əriyib-itən otuz quşun birliyindən quşların padşahı Simurq, yəni Allah yaranır. Vəhdəti-vücud fəlsəfəsi Pamukun romanında öz ifadəsini belə tapır.

"Mənim adım qırmızı"da süjetin istiqamətini saray rəssamlarına verilən sifariş müəyyənləşdirir, kolliziyanın əsasında sultanın portretinin çəkilməsi dayanır, qətlə aparan konflikt nəqqaşlardan birinin bu sifarişi dinə müğayir saymasından qaynaqlanır - eynən Nizaminin Şirini də Xosrov şahın nəqqaş Şapurun fırçasından çıxmış rəsmini görəndən sonra qanlı-qadalı məhəbbət cəbhəsinin, sevgi intriqalarının episentrinə düşür, taleyinin buyurduğu istiqamətdə hərəkətə keçir, fədakar ölümünə, mərdanə qətlinə qədər sapmadan, büdrəmədən qismətinə doğru yol gedir.

"Qar"da mühafizəkar dindarlarla modernist cümhuriyyətçilər arasında atalar-oğullar qovğası gedir, bu ölüm-dirim savaşında dindarlar köhnəliyi (ataları), sekulyarlar yeniliyi (oğulları) təmsil eləyirlər - eynən Firdovsinin Rüstəm-Zalı da döyüş meydanında oğlu Söhrabla üz-üzə gəlir; fərq burasındadır ki, "Şahnamə" dastanında yaşlı, təcrübəli ata gənc, saf oğula qalib gəlib övladını qətlə yetirir, "Qar" romanında isə yaşlı, çinli oğullar silahlanıb atalar cəbhəsindəki gənclərə divan tuturlar: birində qoca keçmiş öz gələcəyini yeyir, o birində yaşlı gələcək növcavan keçmişindən qurtulur...

***

Qalib Cəlalın dünyasında dolaşdıqca cürbəcür macəralarla qarşılaşır, əmisi oğlunun əvəzinə telefon danışıqları aparır, ona ünvanlanan iradları, hədələri dinləyir, Cəlalın yerinə müsahibə verir, nəhayət, onun adından köşə yazıları yazmağa başlayır (Mövlana da qəzəllərini Şəmsin adından imzalayırdı). Qalibin Cəlalın ömrünə səyahəti Cəlalı tapmasıyla yox, özünün Cəlala çevrilməsiylə, dünyaya onun gözüylə baxmasıyla, cəlallaşmasıyla nəticələnir, yəni Qalib Cəlalı məhz bu üsulla, beləsinə tapmış olur. Bundan sonra axtarmağın anlamı qalmır - bundan sonra Cəlal tapılsa nolacaq, tapılmasa nolacaq...

Ancaq bu böyük kəşfinə qədər Qalib çox gərgin axtarışlar aparır, hürufilərin metoduyla İstanbulun ona verdiyi işarələri çözməyə, şəhəri açıq kitab kimi oxumağa çalışır, hər reklam mətnində, hər qəzet başlığında, maşın siqnalında, sellofan torbaların üstündəki yazılarda, qulağına ilişən rabitəsiz kəlmələrdə, məkan adlarında, bir sözlə, hər yerdə, hər şeydə gizli mənalar, örtülü mesajlar axtarır, bu yolla Cəlaldan bir soraq alacağına, Röyanın yerini bəlləyəcəyinə ümid bəsləyir. Eyni zamanda həm İstanbulun mənəvi tarixinə, həm də ruhuna heyran olduğu Cəlal Salikin mənəvi dünyasına çıxdığı mistik səfəri boyunca Qalib aradığı gerçəkləri hürufi rəmzləriylə insanların üzündən oxumağa çalışır. Fəsillərdən biri belə də adlanır: "Hərflərin əsrarı və sirrin itirilməsi".

Səyahətinin sonunda Qalib Cəlalın otağına çəkilib onun paltarlarını geyinir, onun arxivini töküb-töküşdürüb onun masası arxasına keçir, başdan-ayağa Cəlalın qiyafəsinə bürünüb onun adından köşə yazmağa girişir. "Qəhrəman mən imişəm" (ikinci bölümün onuncu fəsli) adlı yazı belə başlanır: "Aynaya baxdım və üzümü oxudum. Ayna səssiz bir dənizdi, üzüm də dənizin yaşıl mürəkkəbiylə yazılı solğun bir kağız. Mən əvvəllər güzgüyə bu qədər boşuna baxanda sənin anan, sənin gözəl anan, mənim də bibim "Canım, üzün kağız kimi ağarıb" deyərdi mənə..." Üslubundan görünür ki, bu məktubköşənin ünvanı Qalibin itkin düşmüş, qardaşı Cəlalla birgə qeybə çəkilmiş sevgilisi, əmisi qızı, arvadı Röyadır.

davamı növbəti sayımızda



*F.UĞURLU*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Estetik zövqümüzün güzgüsü...



## 23 yanvar Beynəlxalq Əlyazma Günüdür

İnsan ilk dəfə fikrini kağıza köçürəndə bəlkə də onun nə dediyindən çox, necə yazdığı yadda qalır. Çünki göz əvvəlcə sözü yox, xətti görür. Gözəl xətt elə bir səssiz dildir ki, oxucuya hələ oxumadan fikir haqqında təəssürat yaradır. Məhz buna görə də deyiblər: "Gözəl xətt göz oxşayır".

Gözəl xətt bəzi hallarda onun sahibinin savad və bilik səviyyəsinin göstəricisi kim qəbul edilir. Məlumdur ki, insanın xəttinə əsasən, onun xarakter və xasiyyətini müəyyən edən qrafologiya elmi var. Məsələn, kriminalistikada anonim şikayət və məktubların araşdırılması ilə məşğul olan mütəxəssislər var. Orta məktəbin aşağı siniflərində isə səliqəli və düzgün yazmaq üçün hüsnxətt öyrədilirdi.

Yeri gəlmişkən, hər il yanvarın 23-ü dünyada Əlyazma Günü kimi qeyd edilir. Mütəxəssislər deyir ki, əllə yazılan mətn onun müəllifinin daxili dünyasından, hiss və duyğularından soraq verən informasiyadır. Antik və intibah dövrlərində yazılanlar məhz əlyazma şəklində bu günə gəlib çıxıb. Məsələn, Rusiyada inqilabçıların, mütəfəkkirlərin, yazıçı və şairlərin çoxlu yazışmaları var və bu əlyazmalar onların fəaliyyətinin böyük bir hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatında isə Cəfər Cabbarlının Sona xanıma, Mikayıl Müşfiqin Dilbər xanıma, Hüseyn Cavidin ailə üzvlərinə məktubları məşhurdur.

### Azərbaycanın tanınmış xəttatları...

Hələ çap maşınları icad olunmamışdan əvvəl mütəfəkkirlərin, alim və şairlərin əsərlərinin üzü xəttatlar tərəfindən köçürülərək yayılıb. Yazı mədəniyyətinin formalaşmasında xəttatların rolu olduqca böyükdür. Alimlər qeyd edir ki, xəttatlıq islam aləmi tərəfindən mənimsənib istifadə edilən, ərəb hərflərinin müxtəlif formalarda yazılması ilə meydana gələn yazı sənətidir. İncəsənətin bir növü sayılmasa da, ayrıca sənət qolu kimi daim inkişafda olduğu bildirilən xəttatlığın islam dünyasının da mədəni dəyərlərini özündə əks etdirdiyi bildirilir.



Azərbaycanda bir çox tarixi abidənin kitabələrində ərəb əlifbası ilə gözəl xətt nümunələrinə rast gəlinir. Ən çox rast gəlinən nəsx xətləridir. Yeri gəlmişkən, xəttatların fəaliyyəti nəticəsində müxtəlif xətt növləri yaradılıb. Epiqrafik abidələrdə kufi, nəsx xətləri ilə yanaşı, süls, şikəstə və nəstəliq xətlərinə də rast gəlinir. Görkəmli Azərbaycan xəttatlarından Mübarək şah Zərrinqələm Təbrizi, Şeyx Əhməd Sührəvərdi, Xacə Mir Əli ibn İlyas Təbrizi, Cəfər Təbrizi bu sənətin inkişafında xüsusi rol oynayıblar. Bu gün Azərbaycanda Tahirə Abdullayeva, Seyfəddin Mənsimoğlu, Vüqar Məmmədov, Müzafəddin Əzizov kimi tanınmış xəttatlar var.

### Gözəl xətt müalicə üsullarından biridir...

Mütəxəssislərin qənaətinə görə, əl yazısı və yaxşı xətt gözəlliyin, sağlamlığın qorunmasına və ömrün uzanmasına kömək edir. Məsələn, xəttatlığın geniş tətbiq olunduğu Yaponiya və Çində yazının müalicə üçün tətbiq olunmasının mümkünlüyü üzərində araşdırma aparılıb. Vaxtilə Pekin Qrafik Kommunikasiya İnstitutunda aparılan araşdırmaya görə, gözəl xəttə malik tələbələr daha sağlam və perspektivli olurlar. Həmin institutda aparılan tədqiqatlar nəticəsində böyük xəttatların çoxunun uzunömürlü olduğu müəyyən edilib.

### Texnologiyalar çox şeyi arxa plana keçirib

Etiraf edək ki, texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə əl yazısının dəyəri sanki kölgədə qalıb. Klaviatura hər kəs üçün eyni şriftlə danışır, hərflər fərqlənmir, xətlər eyniləşir. Amma əl yazısı fərdidir - insanın daxili aləmini, xarakterini, hətta ruh halını belə əks etdirir. Səliqəli, axıcı yazı diqqət və hörmət hissi oyadır.

Orta məktəblərdə şagirdlər arasında dostluq yazışmaları, ailələrə böyük sevinc bəxş edən əsgər məktubları, sevgi məktubları... Təəssüf ki, artıq bunların hamısı arxada qalıb. İndi küçələrdə poçt qutuları, mənzillərdə poçt üçün, o cümlədən məktub üçün ayrılan guşələr də çox nadir hallarda gözə dəyir.

*Yeganə BAYRAMOVA*

# Bu qidaları qarışdırmayın...

İlin bütün fəsillərində qida zəhərlənmələri rast gələnən problemlərdən biridir. Məlumdur ki, payız-qış fəslində qida rasionunda bəzi dəyişikliklər baş verir. Xüsusilə, havalar soyuyanda balıq, göbələk və konservləşdirilmiş məhsulların istifadəsi önə çıxır. Belə olan halda zəhərlənmə halları da təbii olaraq artır.

Meyvə-tərəvəz yığılmamışdan bir-iki gün əvvəl dərmandan istifadə olunarsa və dərmanlamadan sonra yağış yağmayıbsa, həmçinin məhsullar təmiz yuyulmayıbsa, zəhərlənmə baş verə bilər. Qida məhsullarının düzgün şəraitdə saxlanılmaması da zəhərlənmələrə yol açır.



### İlkin yardım

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən həkim-terapevt Şahvələd Məmmədov qida zəhərlənmələri zamanı diqqət edilməsi vacib olar məqamlardan danışıb. Onun sözlərinə görə, qida zəhərlənməsi üçün bəzi hallarda inkubasiya dövrü bir neçə saat olur: "Məsələn, səhər hansısa süd məhsulu ilə qidalanan şəxs zəhərləndikdə özündə prodromal dövr yaşaya bilər. Prodromal dövr dedikdə ümumi zəiflik, halsızlıq, ürəkbulanma, qusma, ishal və bədən hərarətinin qalxması nəzərdə tutulur. İlk növbədə çalışmaq lazımdır ki, mədə-bağırsaq yuyulması həyata keçirilsin, bağırsaqtəmizləyici imalə edilsin. Bu mümkün olmasa, hər 10 kiloqram bədən çəkisinə 1 tablet olmaqla kömür dərman vasitəsini əzib 1 stəkan suya qatıb içmək lazımdır. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin inkişafının qarşısı alınır".

### Hansı qidaları birgə yemək olmaz?

## Zəhərlənməmək üçün nə etməli?

Terapevtin sözlərinə görə, elə qidalar var ki, onları birgə qəbul etmək problemlər yaradır: "Yemək çeşidinin müxtəlif olması, eyni vaxtda rəngarəng qidaların qəbulu ən azı mədə-bağırsaq pozulmaları, köp, qəbizlik yaradır. Qatıqla birlikdə balıq yemək olmaz. Bunları birlikdə yemək ağır xəstəliyə səbəb ola bilər. Yemişlə birlikdə bal yemək də çox ağır zəhərlənməyə şərait yaradır. Bundan başqa, qatıqla sirkə birlikdə yeməklərə istifadə olunanda zəhərlənmə yaratması mümkündür.

Südlə təzə pendir, südlə balıq, südlə qatıq da birlikdə yeyiləndə mədə-bağırsaq pozulmaları yaradır. Satışda sarı rəngdə, yağlı göbələklər olur, dadlı da olsa, qaynatmadan qovrulması zəhərlənmə yarada bilər. Üzəri gümüşü, falqaya bükülmüş və bişirilmiş əti qətiyyən yemək olmaz. Müəyyən edilib ki, bu, çox güclü bir kanserogendir, yəni xərçəng əmələ gəlməsinə səbəb olur. Təndirdən təzə çıxmış toyuq ətini qətiyyən bükmək olmaz, əl yandırmayan hala gəldikdən sonra bükmək olar.

Süd, ayran və bananın birlikdə yeyilməsi mədə-bağırsaq pozulmasına səbəb ola bilər. Ümumiyyətlə, çalışmaq lazımdır ki, yemək bir çeşiddən ibarət olsun, yemək çeşidləri artdıqca problemlər də artacaq".

### Düzgün qablaşdırma da vacibdir...

Həkim həmçinin qeyd edib ki, müasir dövrdə piştaxtalarda minlərlə eyni çeşidli məhsul görmək mümkündür. Bu səbəbdən də istehsalçılar alıcıların marağını cəlb etmək üçün müxtəlif dizaynlı qablaşdırmalardan istifadə edirlər: "Xüsusən qida sektorunda istehlakçıların əksəriyyətində məhsul və onun istehsalçısı haqqında ilkin və güclü təəssürat qablaşdırmadan yaranır. Qida ilə birbaşa təmasda olan qablaşdırma materiallarının tərkibində olan maddələr qidaya təsir etməməlidir. Qablaşdırma düzgün seçilmədikdə qablaşdırma materialının tərkibində olan kimyəvi maddələr qidaya nüfuz edə bilər.

Qida məhsullarının qablaşdırılması üçün bir çox qablaşdırma materialı var ki, onların təkrar istifadəsi qadağandır. Təkrar istifadəsi qadağan edilən qablaşdırma materialına Pet (Polietilen tereftalat) qablaşdırmanı misal göstərmək olar ki, bu qablaşdırma materiallarının hazırlanmasında istifadə olunan kimyəvi maddələr təkrar istifadə zamanı plastikdən süzülür və insanın qanına, toxumasına yayılır. Bu kimi təsirlərə məruz qalan oqranizmdə xərçəng, immun sistemi funksiyasının zəifləməsi, hormonal pozğunluq və zəhərlənmə riski var".

*Yeganə BAYRAMOVA*





## Qollarımızın sayı 150-yə çatdı

Azərbaycan klublarının UEFA Çempionlar Liqasında vurduğu qolların ümumi sayı 150-yə çatıb. Peşəkar Futbol Liqasından AZƏRTAC-a bildirilib ki, yubiley qolunu Bəhlul Mustafazadə vurub.

"Qarabağ"ın müdafiəçisi Liqa mərhələsinin VII turunun "Ayntraxt"la (Frankfurt, Almaniya) ev matçında qələbə topunun müəllifi olub - 3:2. Azərbaycan komandaları qitənin ən nüfuzlu klub turnirinin təsnifat və əsas mərhələlərinə keçirilən 116-cı matçda 150-yə çatıb.

Bu qollara 7 komanda imza atıb. "Qarabağ" hamıdan çox - 110 dəfə fərqlənib. "Neftçi" 18, "Bakı" 7, "Şəmkir" 6, "Kəpəz" 4, "Şamaxı" 3, "Xəzər Lənkəran" 2 qola sevinib. 150 qoldan 135-i təsnifat və pley-off, 15-i əsas mərhələlərdə (qrup və liqa) vurulub.

Qeyd edək ki, Çempionlar Liqasında Azərbaycan təmsilçilərinin ilk qoluna İmamyar Süleymanov imza atıb. O, 1998-ci il iyulun 22-də LKS (Polşa) - "Kəpəz" qarşılaşmasında (4:1) fərqlənib.



## Yuri Syomin: Qurban Qurbanovun işinə heyranam

"Qurban Qurbanovun işinə heyranam". Bu sözləri AZƏRTAC-a eksklüziv açıqlamasında rusiyalı tanınmış mütəxəssis Yuri Syomin "Qarabağ"ın UEFA Çempionlar Liqasının liqa mərhələsinin VII turunda Almaniyanın "Ayntraxt" komandasına 3:2 hesabı ilə qalib gəldiyi oyun barədə danışarkən deyib.

O, Azərbaycan çempionunun nəticəsini böyük uğur adlandırıb: "Oyunu izlədim. Bütün Azərbaycan xalqını təbrik edirəm. Bu qələbə klub tarixi üçün mühüm məqamdır. Futbolçular əla mübarizə apardılar. Qurban Qurbanov isə "Qarabağ"ın uğurlarının əsas fiqurudur".

Qeyd edək ki, Yuri Syomin 2013-2014-cü illərdə "Qəbələ" komandasının baş məşqçisi olub.




## Hakimlər fiziki testdən keçdilər

Azərbaycan Basketbol Federasiyasının (ABF) beynəlxalq dərəcəli hakimləri mövsümortası fiziki testdən uğurla keçiblər.

ABF-dən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq dərəcəli hakimlər mövsümün ortasında keçirilən qaçış testini uğurla tamamlayaraq, yay mövsümündə FIBA turnirlərində iştirak etmək hüququ qazanıblar.

Test FIBA-nın Azərbaycandakı milli təlimçisi Ələkbər Həsənov tərəfindən keçirilib.

Qeyd edək ki, testə ABF-nin müxtəlif liqalarında fəaliyyət göstərən hakimlər də cəlb olunub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4602**
**Sifariş: 99**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova